

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Türk Dövlətləri Təşkilatı dünya nizamında yeni bir güc kimi meydana gəlməkdədir"



12


# SƏS

№ 137 (7062)

2 avqust 2024-cü il.
Qiymәti 60 qәpik


# Düşünülmüş siyasət və uğurlu inkişaf modeli



2

**Abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir**

# Budəfəki qələbənin adı Zəfər seçkisi olacaq



4

## Ermənistanın qatıldığı TƏHLÜKƏLİ OYUNLAR



3

## Ana südü "smes"ə qarşı: kim qazanacaq?



13

## Azərbaycan kinosu: kimdir günahkar?




5

## Azərbaycan cüdoçusu Olimpiya çempionu oldu!



10

## Ana dilinin düşmənləri



11

# Düşünülmüş siyasət və uğurlu inkişaf modeli

## Abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir

**Bu gün Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə daha da böyük inam və əminlik yaradıb. Prezident İlham Əliyev dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib.**

Azərbaycanın uğurlu inkişafının təmin edilməsində və qarşıda duran bütün əsas vəzifələr uğurla icrasının təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir. Ölkəmizin istənilən bir sahəsində uğurları görmək mümkündür ki, bu da insanların firavanlığının təminində mühüm rola malikdir.



### ÖLKƏDƏ 60-DAN ÇOX YENİ ELEKTRİK STANSİYASI İSTİSMARA VERİLİB

Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. 2022-ci ildə regionlar üzrə məhsul buraxılışının nominal həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə böyüyüb, əhalinin nominal gəlirləri isə 10,5 dəfə artıb. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. Statistik rəqəmlərə əsasən. 2004-2022-ci illərdə ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib. Elektrik enerjisinin 76%-i regionlarda istehsal edilir. Bu illər ərzində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, ”İqtisadi göstəricilərimiz və sosial proqramlarımız gəlirlərin ədalətli şəkildə paylanmasını təmin etmək üçün neft və qaz vəsaitlərini yoxsulluq və işsizlik kimi məsələlərin həllinə yönəltdiyimizi aydın şəkildə göstərir. Enerji əməkdaşlığımıza başlayanda və neft satışından ilk gəlirləri əldə edəndə Azərbaycanda yoxsulluğun səviyyəsi 50 faizə yaxın idi. Yəni, hər iki adamdan biri yoxsul idi. Qaçqınlar arasında bu göstərici 75 faizi ötürdü. ,,,Hazırda biz həmin göstəricini 5 faizə qədər azaltdıq. Eyni vəziyyət işsizlikdə müşahidə olunur”.

Regionlarda qazlaşdırmanın səviyyəsi 94%-i ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9%-dən 73%-ə çatıb. Bütün bu və ya digər göstəricilər və statistik rəqəmlər deməyə əsas verir ki. Azərbaycan böyük bir ikkişaf yolu keçərək nufuzunu yüksəltmələy nail olub. Bu göstəricilər insanların rahatlıq və firavanlığını yüksəldib.



### ”ÖLKƏNİN İNKİŞAFINA TÖHFƏ VERMƏK ÜÇÜN GƏNC NƏSİLLƏR TƏLİMDƏN KEÇMƏLİDİR”

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb. ”Peşə təhsilinə xüsusi diqqət yetiririk. Hazırda bütün ölkədə peşə təhsili mərkəzlərinin açılmasına dair xüsusi proqramımız var. Rayonların iqlim şəraiti və ya inkişaf istiqamətindən asılı olaraq məktəblər açırıq. Məsələn, biz turizm yerlərində turizm peşə məktəblərini açırıq. Digər yerlərdə, sənayeyə aid mərkəzlər açılır. Bu, müəyyən elementlərin toplusudur. Lakin, əlbəttə ki, əsas məqsəd təhsilin səviyyəsini bu gün olduğu kimi yüksək səviyyədə saxlamaqdır. Bu gün mütləqdir ki, ölkənin inkişafına töhfə vermək üçün gənc nəsillər təlimdən keçməlidir. Yadımdadır, ilk dəfə gənclərin xaricə təhsil üçün göndərilməsi proqramına başlayanda müəyyən fikir var idi ki, biz onların geri qayıtması üçün təminat almalıyıq, çünki bu cür olmasa, biz çox vəsait xərcləyəcəyik və onlar oxuduqları yerdə qalacaqlar. Dedim, yox! Bildirdim ki, biz ölkəmizdə elə şərait yaratmalıyıq ki, onlar qayıtmağa üstünlük versinlər. Beləliklə, hazırda mən görürəm ki, Birləşmiş Ştatlarda, Britaniya və Avropanın digər ölkələrində təhsil almış tələbələrin əksəriyyəti geri qayıdır. Bu, onu göstərir ki, biz düzgün yoldayıq. Biz daha ürəkdən çalışmalıyıq ki, gənc azərbaycanlılar ölkəni tərk etməsin, çünki bu, postsovet məkanında bir çox ölkələrdə problemlərdən biridir... Düşünürəm ki, bizim vəziyyət daha yaxşıdır, çünki ölkədə əhali çox olanda, siz daha güclüsünüz. Lakin siz onları işlə, evlə, layiqli şəraitlə, səhiyyə ilə təmin etməlisiniz və biz bu işləri görürük. Biz neft və qazın satışından əldə edilən gəlirlərin əksər hissəsini sosial sahəyə yönəldirik”. Yeni və çevik iqtisadi yanaşmalar, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin daha da artırılması, vergi və gömrük sistemində köklü dəyişikliklər, şəffaflığın artırılması kimi mühüm amillər Azərbaycanın dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafını təmin edib.

### AZAD EDİLMİŞ ƏRAZİLƏRİMİZİN BƏRPASI DÖVRÜ

Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, bizim ölkəmiz üçün yeni dövr başlayır: ”Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq”.

Əlbəttə ki azad edilmiş torpaqların dirçəlişi və reinteqrasiyası ümumilikdə ölkənin iqtisadi potensialının artmasına geniş imkanlar vəd edir. ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Beləcə düşünülmüş siyasətə əsaslanan inkişaf modeli seçən müasir və qüdrətli Azərbaycanın gələcəyi də işıqlı və uğurludur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənistanın qatıldığı TƏHLÜKƏLİ OYUNLAR

***Qərb, Avropa Cənubi Qafqazda məkrli oyunları davam etdirdikcə və rəsmi İrəvan da bu oyunlara qatıldıqca, bütövlükdə Ermənistan təhlükələrə sürüklənir. Regionda ABŞ və Avropanın apardığı məkrli siyasətə işğalçı ölkənin də qoşulması heç də həmin ölkəyə yaxşı nə isə vəd etmir. Qərbin, eləcə də Avropanın Cənubi Qafqazda geosiyasi hədəfləri genişləndikcə, Ermənistan da alət olmağı qəbul etdikcə, daha dərin "quyuya" yuvarlanır.***




## Proseslərə kənardan edilən müdaxilələr, heç şübhəsiz ki, ancaq dağıdıcı xarakter daşımaqdadır

Ermənistan üzərindən regional təhlükəli manevrlərin intensivləşdirilməsi bildiyimiz kimi, arzuolunmaz nəticələrə rəvac verir. Cənubi Qafqazda gedən geosiyasi proseslərə kənardan edilən müdaxilələr, heç şübhəsiz ki, ancaq dağıdıcı xarakter daşımaqdadır və bunu tam zamanında nəzərə almaq gərəkir. Məhz kənar müdaxilələrin mövcudluğu ilk növbədə regional savaş təhlükəsinin olması deməkdir. Azərbaycanın xəbərdarlıq mesajları da bu baxımdan, heç də təsadüfi və səbəbsiz deyil. Bu xəbərdarlıq mesajlarına görə isə Qərb və Avropada yaranan çaşqınlıq da anlaşılandır və həm də məntiqidir. Eyni zamanda Ermənistanın da qorxuya düşməsini başa düşmək çətin deyil. Çünki ermənilər başa düşürlər ki, onlara xəbərdarlıq mesajlarını verən ölkə, yəni Azərbaycan, qüdrətli bir ölkədir və 44 günlük müharibədə ölkəmizin mükəmməl qələbəni əldə etməsini, eləcə də, bir gündən az müddətə ordumuzun separatizmin, terrorçuluğun kökünü kəsməsini müşahidə edənlər bundan sonra da nə ilə qarşılaşa biləcəklərinin artıq çoxdandır ki, fərqindədirlər. Fərqindədirlər ki, bu dəfə də təxribatlara əl atsalar, onlar xoşagəlməz nəticələrlə qarşılaşmalı olacaqlar. Yaxşı bilirlər ki, bu dəfə savaş olsa, Ermənistanın bir dövlət kimi mövcudluğu belə sual altında qala bilər. Bir çoxları dərk edirlər ki, çox təhlükəli oyunlara qatılıblar və bu onlara, işğalçı ölkəyə baha başa gələ bilər və Ermənistan dövləti bundan sonra tarixin arxivinə düşər. Belə bir qorxunun yaranmasının səbəbi də odur ki, onlara yardimin, ələlxüsus da Rusiya tərəfindən köməkliyin edilməyəcəyinə haylar artıq əmindirlər. Hayların bir çoxları əmindirlər ki, savaş ehtimalı reallaşsa, nə Qərb, nə də Avropa onlara köməyə gəlməyəcək və pafoslu mövqelərinə güvənə bilməzlər. Hər halda bunun dəfələrlə şahidi olduları da təkzib edilə bilməz və ermənilər bilirlər ki, ruslar onlardan kifayət qədər narazıdırlar və Ermənistanı xilas etməyə, həmin dövlətə kömək etməyə maraqları da yoxdur və hətta həvəsin olmadığı da göz önündədir.

## Qərb və Avropaya güvənərək alətə çevrilmələrinin onların özləri üçün nə qədər təhlükəli olduğunu başa düşməlidirlər

Etiraf edilməlidir ki, ikitərəfli qaydada danışıqların aparılmasına, eləcə də sonda sülh danışıqlarının baş tutmasına məhz Qərb, eləcə də Avropa heç də maraq göstərmir. Daha doğrusu, ABŞ da, Avropa da ancaq maneçilik törətməklə məşğuldur. Məhz bu maneçiliyə görə də iki qonşu ölkə, Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının baş tutması gecikir və hətta belə bir danışıqların olmasına inamı belə sarsıdır. Göz önündədir ki, rəsmi İrəvanın daha aqressiv mövqe tutmağa sövq edilməsi ilə bağlı prosesə artıq başlanılıb. Qərb və Avropa artıq revanşizmə, ermənilərin daha çox aqressivlik göstərməsinə həmişəkindən daha ciddi-cəhdlə çalışır. Bunun üçün həm köməklik vəd edir, həm də dəstək də göstərir. Görünən odur ki, hayların məhz Qərbin dəstəyini hiss etməsi onların təxribatlara əl atması üçün kifayət edir. Heç şübhəsiz ki, son vaxtlar Azərbaycanla sərhəd bölgəsində Ermənistanın atəşkəsi daha tez-tez pozmağa cəhd göstərməsi də bu baxımdan səbəbsiz deyil. Əgər son vaxtlara qədər Paşinyan hakimiyyətinin atəşkəsi daha tez-tez pozmağa hərbi-siyasi cəsarəti çatmırdısa və indi belə bir cəhdi görürüksə, deməli, haylar kənar qüvvələrin oyunlarına alət olmaqda davam dirlər. Ermənilərin bu şəkildə Qərb və Avropaya güvənərək alətə çevrilmələrinin onların özləri üçün nə qədər təhlükəli olduğunu başa düşməlidirlər.

## Rəsmi İrəvanın siyasi ritorikasındakı sərtləşmə də Ermənistanın qatıldığı təhlükəli oyunlar səbəbindəndir

ABŞ-ın Ermənistanla hərbi təlimlər keçirməsinin də təsirini dərhal hiss etmiş olduq. Sərhəd ərazilərdə müşahidə olunanları yəqin ki, başa düşmək çətin deyil. Hər halda, təlimlərdən, eləcə də Fransadan yeni silahların alınmasından sonra rəsmi İrəvanın "cəsarətləndiyini" görməmək mümkün deyil. Belə görünür ki, ABŞ və Avropa Birliyinin Ermənistana hərbi məqsədlərə yönəlik maliyyə yardımı ayırması da işğalçı ölkənin davranışlarına təsirsiz ötüşə bilməz, necə ki, ötüşə də bilmədi. Yəqin ki, Pentaqonun Ermənistan Müdafiə Nazirliyinə yüksək rütbəli hərbi təmsilçi təyin etməsindən sonra rəsmi İrəvanın siyasi ritorikasındakı sərtləşmə də diqqətdən yayınan deyil. Bu şəkildə təzahürlər məhz Qərbin, eləcə də Avropanın oyunlarına Ermənistanın alət olması fonunda artıb. Amma nə qədər artıbsa, Ermənistan üçün təhlükəni bir o qədər də artırıb. Haylar özləri də bilirlər ki, onların kimə güvənmələrindən, kimin oyunlarına alət olmalarından, hansı təhlükəli oyunlara qatılmalarından asılı olmayaraq, hansısa təxribatlara, nəyə isə əl atacaqları təqdirdə Azərbaycan kimi qüdrətli bir dövlətlə qarşılaşmalı olacaqlar.

## Azərbaycan təkcə Ermənistana deyil, hayların beynəlxalq himayədarlarına da xəbərdarlıq mesajı göndərib

Ermənistan üzərindən qurulan məkrli oyunlara, ermənilərin də buna alət olmalarına Azərbaycan tərəfi qətiyyən müşahidəçi qala bilməzdi. Heç qalmadı da. Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən Ermənistana sərt xəbərdarlıq olundu, hansıki bunu Ermənistan tərəfi əvvəlcədən gözləməli idi. Rəsmi İrəvan bilməli idi ki, təhlükəli oyunlara alət olmaları region üçün qətiyyən qəbuledilən deyil və buna Azərbaycan tərəfindən mütləq reaksiya olacaq. Bilməli idi ki, rəsmi Bakı layiqli cavab verəcək və hətta sərt mesajlar da göndərəcək. Məsələ burasındadır ki, Azərbaycan təkcə Ermənistana mesaj göndərməklə kifayətlənmədi və görürük ki, rəsmi Bakı hayların beynəlxalq himayədarlarına da xəbərdarlıq mesajı göndərdi. Bildirildi ki, rəsmi İrəvanın son davranışlarına son qoyulmazsa, Azərbaycanın buna adekvat olaraq, sərt reaksiya verəcəyinə heç kimin şübhəsi olmasın. Həmçinin o da çatdırıldı ki, Cənubi Qafqazda yaranacaq yeni savaş vəziyyətinə görə Ermənistan və onun beynəlxalq himayədarları məsuliyyət daşıyacaqlar. Bir sözlə, rəsmi Bakı Ermənistanla yanaşı, ABŞ, Avropa Birliyi və Fransaya da hədəlini bildirdi. Həmçinin bildirdi ki, ABŞ və Avropa Azərbaycanın regional maraqlarını nəzərə almadan, istədiyini edə, Ermənistan üzərindən Cənubi Qafqazda hər hansı geopolitik oyunlar qura, rəsmi İrəvanı da alətə çevirərək, bölgə üçün təhlükələr yarada bilməz və belə cəhdlər mütləq regionda yeni savaş vəziyyəti yarada bilər. Rəsmi İrəvanın qorxuya düşməsindən də görünür ki, bu mesajları Ermənistan tərəfi çox yaxşı başa düşüb. Elə bu qorxu fonunda da Azərbaycanın yaxın aylarda Ermənistana qarşı hərbi əməliyyatlara başlaya biləcəyindən rəsmi İrəvanın narahat olması başadüşüləndir. Erməni baş nazir Nikol Paşinyanın və onun hakimiyyət komandasının bu vaxta qədər ancaq vədlər verən Qərb siyasi dairələrindən təhlükəsizlik təminatı istəməsi də bu qorxu fonunda anlaşılandır. Ona görə başadüşüləndir və anlaşılandır ki, Ermənistanın hansı təhlükəli oyunlara qatıldığını rəsmi İrəvan, Paşinyan və onun hakimiyyət komandası, eləcə də erməni cəmiyyəti özü də yaxşı başa düşür.

***İnam Hacıyev***

# Budəfəki qələbənin adı Zəfər seçkisi olacaq

Azərbaycanda hər bir taleyüklü tədbir xalqın yüksək fəallığı ilə keçirilir. Bu da insanların öz taleyinə biganə qalmadığının daha bir nümunəsinin göstəricisidir. Sentyabrın 1-də keçirilməsi planlaşdırılan parlament seçkiləri də xalqın aktivliyi şəraitində keçəcəyi şübhəsizdir. Çünki parlament seçkiləri bütün Azərbaycan ərazisində baş tutacaq. Məlumdur ki, 1991-ci ildən 2023-cü ilə qədər ərazi bütövlüyümüzdə narahatlıqlar vardı. Ancaq 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün çəkən Vətən savaşında əldə olunan hərbi, siyasi, diplomatik qələbənin ardınca 2023-cü il sentyabrın 20-də Qarabağda separatizmin təmizlənməsi ilə bütün ərazilərimizdə suverenliyimiz bərpa edildi. Bu da imkan verdi ki, qalib ölkənin qürurlu vətəndaşları olaraq böyük bayram əhval-ruhiyyəsi ilə seçkilərdə keçirək. Artıq 7 fevral 2023-cü ildə azad və demokratik şəkildə baş tutan prezident seçkilərində xalq axın-axın seçki məntəqələrinə gedərək səsvermədə iştirak etdi və Qarabağı işğaldan azad edən Fateh Sərkərdəsinə minnətdarlıq borcunu yerinə yetirmək üçün ona səs verdi. Bu sevincli günlərin davamı təbii ki, olacaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərimizdə geniş quruculuq abadlıq işləri fonunda insanlar öz doğma yurd-yuvalarına qayıdırlar. O yerlərə yeni nəfəs verilir. Doğma yurdlarına dönən insanlar işləyir, çalışır və bölgənin inkişafına öz töhvələrini verməyə çalışırlar.



## Azad olunmuş ərazilərdə seçki məntəqələrinin sayı artacaq

Belə gözəl, möhtəşəm tarixi günlərdə xalqımız daha bir seçkiyə-parlament seçkilərinə hazırlaşır. Artıq seçkiyə hazırlıqla bağlı lazım olan bütün texniki işlər həyata keçirilib. İşğaldan azad edilən ərazilərdə diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, seçki prosesində yeni-yeni məntəqələr yaradılır, qruplar formalaşır. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-da dairə seçki komissiyalarının sədrləri üçün keçirilən müşavirədə bildirib ki, 125 seçki dairəsi üzrə 6400-dən artıq məntəqədə seçkilərin keçirilməsi üçün hər cür şərait yaradılır. MSK sədri bildirib ki, xüsusilə azad olunmuş ərazilərdə Milli Məclisə seçkilərdə də ilk dəfə vətəndaşlar səs verəcək: "O bölgədəki seçkilərə xüsusi fikir veririk. Azad olunmuş ərazilərdə seçki məntəqələrinin sayı artacaq".

MSK sədrinin müavini Rövzət Qasımov isə bildirib ki, azad olunmuş ərazilərdə 8 əlavə seçki məntəqəsinin yaradılması qərara alınıb: "Beləliklə, parlament seçkilərində 34 daimi seçki məntəqəsi fəaliyyət göstərəcək. Azad olunmuş ərazilərdə müvəqqəti seçki məntəqələri də yaradılacaq və bu barədə ictimaiyyətə əlavə məlumat veriləcək".

Parlament seçkilərinin monitorinqi üçün ATƏT DTİHB, MDB, İslam Əməkdaşlıq Təşkilatı, GUAM, Şanxay Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatına dəvət göndərilib. Artıq sözügedən beynəlxalq miqyaslı təşkilatlar seçkiləri yazından izləyəcəklərinə dair rəylərini bildiriblər. Hətta Azərbaycandakı seçki prosesinə daim qərəzlə yanaşan ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) Azərbaycanda 300-dən çox müşahidəçi ilə təmsil olunmaq istəyir.

## Parlament seçkiləri azad və demokratik şəraitdə baş tutacaq

Görülən və həyat keçirilən seçki hazırlıqları onu deməyə əsas verir ki, parlament seçkiləri azad və demokratik şəraitdə baş tutacaq. Hər hansı bir problemin və ya çatışmazlığın da olması mümkün deyil. Çünki hazırlıqlar ən yüksək səviyyədə həyata keçirilir. Bu məsələdə böyük təcrübədə öz sözünü deyir. Ulu Öndər Heydər Əliyev xalqın təkidli xahişi ilə ikinci dəfə hakimiyyətə gələndən seçkilərin beynəlxalq prinsiplərə və Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olaraq azad və demokratik şəraitdə keçirilməsini təmin edib. Bu səbəbdən də beynəlxalq birlik Azərbaycanın seçki təcrübəsini yüksək qiymətləndirib. Azərbaycan seçicisi seçkilərin tələblərini, prinsiplərini, seçkinin keçirilmə qaydalarını, namizəd-seçici dialoqunu çox dəqiq bilir. İnsanları seçkilərlə və irəli sürülən namizədlərlə bağlı yüksək bilgilərə malikdirlər.

Bu məsələdə MSK-nın tez-tez maarifləndirici konfranslar, seminarlar keçirməleri də mühüm rol oynayır. Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinə əsasən Təqvim Planı tutub və buna əsasən seçkinin bütün mərhələləri vaxtında icra olunur. Hazırda siyasi partiyalar, həmçinin müstəqil şəkildə seçkiyə qatılmaq istəyən namizədlər seçki qanunvericiliyinə və MSK-nın təsdiq etdiyi Təqvim Planına uyğun olaraq hazırlıq işlərini davam etdirirlər. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan hakimiyyəti parlament seçkilərinin azad, şəffaf və ədalətli keçirilməsi üçün üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirir. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov bildirib ki, növbədənkənar parlament seçkilərinə 390-a yaxın namizəd artıq qeydə alınıb: " 60 nəfər imza vərəqələrini qaytarıb. 1200-dən çox şəxs isə imza vərəqələrini götürüb. 26 siyasi partiyanın 25-i seçkilərdə iştirak edəcək".

Avqustun 2-də namizədlərin qeydə alınması mərhələsi başa çatır, avqustun 3-dən isə seçkilərin təbliğat-təşviqat dövrü başlayır. Bu dövrdə namizədlərin öz seçki platformalarını necə hazırlamaları və seçicilərə təqdim etmələri xüsusi rol oynayacaq. Bu mənada seçkiqabağı təbliğat-təşviqat seçki prosesinin əsas mərhələlərindən biridir. Məhz seçkinin bu mərhələsində prosesə qoşulan subyektlər özlərini təbliğ etmək üçün birbaşa seçicilərlə təmasa girərək onların rəğbətini qazanmaq imkanı əldə edir, digər namizədlərdən daha üstün olmasını sübut etməyə çalışır. Bu isə seçkidə qalib gəlmək üçün olduqca vacib bir məsələdir.

Araşdırmalara və proseslərə əsasən demək olar ki, parlament seçkilərinin budəfəki mütləq qalibi Yeni Azərbaycan Partiyası olacaq. Çünki Yeni Azərbaycan Partiyası Azərbaycanın ən böyük siyasi təşkilatı olmaqla bərabər, həm də öz xalqına ən yaxın olan siyasi təşkilatdır. YAP Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursa uyğun olaraq fəaliyyət göstərməklə böyük uğurlara nail olub.

## YAP-ın nüfuzu getdikcə daha da artmaqdadır

Söz yox ki, YAP bugünkü uğurlara, xalqın yüksək etimadını, beynəlxalq birliyin hörmətini çətin, lakin şərəfli bir dövrü keçməklə nail olub. O dövrdə, yəni ötən əsrin 90-cı illərində ölkəmizdə ağır vəziyyət hökm sürürdü. Dövlət müstəqillik məhv olmaqla yanaşı, xalqın sabaha olan ümidləri də alt-üst olmuşdu. Həmin tarixi hadisələri dəyərləndirən Ulu Öndər Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır". Xalqın Ümummilli Lider Heydər Əliyevə olan inamı isə tez bir zamanda siyasi səhnədə parlayan Yeni Azərbaycan Partiyasının tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan verdi. Ümummilli Liderimizin nüfuzu, Azərbaycan xalqının ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Uzaqgörən müdrik siyasəti ilə Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanı siyasi, iqtisadi və hərbi böhrandan xilas edə bildi. İqtisadi uğurların dinamikasını isə 1994-cü il sentyabrın 20-də imzalan "Əsrin müqaviləsi" ilə təşkil etdi. Bu, Dahi Öndərimizin uğurlu neft strategiyası idi. Bu yeni neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi haqqında müqaviləni bağlamaqla dahi Öndərimiz Heydər Əliyev təkcə Azərbaycanın yox, Gürcüstan və Türkiyənin də iqtisadi inkişafına zəmin yaratdı. Üstəlik, bu ölkələrin təhlükəsizliyini təmin etdi. Bu gün Azərbaycanın sükanı etibarlı əllərdədir. Ulu Öndərimiz Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin qətiyyəti siyasi iradəsi sayəsində 30 il işğalda olan torpaqlarımız işğaldan azad olunaraq sərhədlərimiz tam şəkildə bərpa olundu. İşğaldan azad olunmuş torpaqlarımızda tikinti quruculuq işlərini sürətlə həyata keçirilməsi və əhalinin yurd-yuvalarına qayıtması Azərbaycanın gücünə yeni güc qatır. Təbii ki, əldə olunan uğurlarda Yeni Azərbaycan Partiyasını, onun üzvlərinin də payı var.

Məhz nəticələrin yüksək olması səbəbindəndr ki, YAP-ın nüfuzu getdikcə daha da artmaqdadır. Bu da partiyanın sıralarının genişlənməsinə təkan verir. Əgər YAP-ın 2001-ci ildə keçirilən II Qurultayı zamanı partiya üzvlərinin sayı 230 min nəfər idisə, III Qurultaya qədər bu göstərici 360 min nəfərə yüksəlmişdir. Hazırda isə Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 850 minə yaxındır. Bu amil YAP-ın nəinki Azərbaycanda, eyni zamanda, bölgədə böyük siyasi gücə malik siyasi təşkilat olduğunu təsdiqləyir.

## "Parlament seçkiləri xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi olacaq"

Cəmiyyətin aparıcı partiyası olan Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verir. Bu və digər amilləri nəzərə alaraq əminliklə demək olar ki, sentyabrın 1-də keçirilməsi planlaşdırılan parlament seçkilərinin budəfəki qalibi Yeni Azərbaycan Partiyası olacaq. Daha doğrusu, YAP seçkinin qalibi olaraq Milli Məclisdə çoxluğa sahib olacaq. Çünki YAP altenativi olmayan və Cənubi Qafqazın ən güclü partiyasıdır. Digər tərəfdən YAP-ın kifayət qədər seçki təcrübəsi mövcuddur. Əhali ilə işləməyi, cəmiyyətə seçki platformasını necə və hansı formada çatdırmağı bacarır. Həmçinin əhali birmənalı şəkildə YAP-a inanır və etibar edir. Yeni Azərbaycan Partiyası Seçki Məcəlləsi və MSK-nın təsdiq etdiyi Təqvim Planına uyğun olaraq seçki hazırlığını uğurla davam etdirməkdədir. Bir müddət əvvəl Milli Məclisə seçkilərlə əlaqədar YAP-ın Mərkəzi Seçki Qərargahı yaradılıb. Bundan irəli gələrək YAP mərkəzi seçki qərargahının rayon şöbələri də təşkil olunub. Yeni Azərbaycan Partiyası (YAP) sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri üzrə 125 seçki dairəsinin hamısından öz namizədini elan edib. YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi olacaq.

Xalqa arxalanan Yeni Azərbaycan Partiyası seçkilərə daha inamlı və əminliklə gedir. Ona görə də, heç bir mübahisələrə və müzakirələrə yol vermədən qeyd etmək olar ki, sentyabrın 1-də baş tutacaq parlament seçkiləri YAP-ın tarixinə daha bir parlaq QƏLƏBƏ olaraq yazılacaq.

***İLHAM ƏLİYEV***

# Azərbaycan kinosu: kimdir günahkar?

***Azərbaycan kinosu xalqımızın maariflənməsində, estetik zövqünün formalaşmasında, milli və vətənpərvərlik hissinin güclənməsində özünəməxsus rol oynamış, milli-mənəvi dəyərlərimizi və adət-ənənələrimizi yaşatmışdır. Milli kino sənətimizin bu cəhətlərini yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev demişdir: "Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşubdur... Xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir". Və 2000-ci il 18 dekabr tarixli Fərman ilə 2 avqust Azərbaycan Kinosu Günü ölkəmizdə kino işçilərinin peşə bayramı elan olunub.***



## Filmlərimiz var idi...

O kinodan ki, həqiqətən də vaxtilə öz sözünü deyə, tamaşaçı rəğbətini qazana bilmişdi. İnsanlara gözəl duyğular bəxş etməklə, əxlaqi, milli-mənəvi dəyərlərimizi qorumaqla, xalqımıza məxsus qəhrəmanlıq səhifələrini özündə əks etdirməklə, ailə-məişət mövzularına nümunəvi şəkildə toxunmaqla Azərbaycan kinosu elə filmlər istehsal etmişdi ki, baxmaqla doymaq olmurdu. Elə indinin özündə də həmin filmlərin hər birinə sevə-sevə tamaşa edirik. Hələ bəzən özümüzə belə sual da veririk ki, bu filmlərdən nə üçün doymaq olmur? Hər dəfə baxanda sanki ilk dəfədir, baxırmışsan kimi gəlir adama.

Bizim "Dədə Qorqud" adlı filmimiz var. Bu qədim xalqın qəhrəmanlıq səhifələri, milli-mənəvi keyfiyyətləri, adət-ənənələri ilə dolu bir filmdir. 1975-ci ildə "Kitabi Dədə Qorqud" dastanının motivləri, yazıçı Anarın eyniadlı povesti əsasında çəkilmişdir. Aradan 50 ilə yaxın dövr keçsə də, bu film öz dəyərini əsla itirmir. Baxdıqca baxılır.

Bizim "Babək" adlı filmimiz var. 1979-cu ildə çəkilən filmdə xalqımızın qəhrəman oğlu, görkəmli sərkərdə və siyasi xadim Babəkin azadlıq hərəkatından bəhs olunur. Aradan 45 ildən artıq zaman keçməsinə baxmayaraq bu filmi hər dəfə böyük şövq və qürurla işləyirik.

Bizim "Yeddi oğul istərəm" adlı filmimiz var. 1970-ci ildə xalq şairi Səməd Vurğunun "Komsomol poeması"nın motivləri əsasında çəkilmiş film Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 50 illiyinə ithaf olunsa da, həmin 50 ildə sovet imperiyasının təsiri altında yaşasaq da, lakin film olaraq çox sanballı və yaddaqalandır. Odur ki, baxmayaraq ki, indi müstəqil ölkədə yaşayırıq, lakin o film bizim üçün yenə eyni dəyərdə qalmaqdadır.

Bizim "Axırıncı aşırım" kimi filmimiz var. 1971-ci ildə ekranlaşdırılmış kino əsərindəki dramatik hadisələr Azərbaycanın dağ kəndlərinin birində sovet hakimiyyəti qurulduğu ilk illərdə baş verir. Bu film də yaşadığımız sovet hakimiyyəti illərini əsas mövzu etsə də, lakin o tarix bizim yaşadığımız tarixdir. Və film o qədər heyrətamiz şəkildə ekranlaşdırılıb ki, bu gün də hər birimiz o filmdən sitat gətiririk. Hər birimiz o filmi illər öncəki maraqla, həvəslə, sevgi ilə izləyirik. Hansı ki, aradan yarım əsrdən artıq zaman keçib.

"Bəxtiyar, "Arşin mal alan", "O olmasın, bu olsun", "Qayınana", "Əhməd haradadır", "Ulduz", "Yenilməz batalyon", "Bizim Cəbiş müəllim" və adlarını çəkmədiyimiz onlarla filmlər var ki, aradan 50 ildən artıq vaxt keçməsinə baxmayaraq bu gün də fəxr etdiyimiz Azərbaycan kino sənətinin nümunələridir. Bəs bu gün?

## Haradasan, Azərbaycan kinosu?..

Bəs belə isə bu gün haradadır Azərbaycan kinosu? Nə üçün bu siyahını davam etdirə bilmirik. Yəni belə sanballı filmlərlə davam etdirə bilmirik...

Diqqət etsəniz, görə bilərsiniz ki, Azərbaycan kinosu vikipediyasında 1898-ci ildən başlayan kino sənətimizin ayrı-ayrı illərdə inkişaf xətti göstərilib. Yəni illər üzrə çəkilən filmlərin siyahısı, aldığı mükafatlar yerləşdirilib. Lakin bu siyahı 2015-ci ildə bitir. Yəni həmin ildən bu yana çəkilən filmlər ya yoxdur, ya da hansısa məsuliyyətsizlik ucbatından burada yer almır.

Bu gün Azərbaycan televiziya məkanında yağışdan sonra çoxalan göbələk qədər teleseriallar görmək mümkündür. Hansı kanala baxırsansa, orada bir neçə serialla qarşılaşırsan. Bunların arasında isə təsadüf nəticəsində yaxşı biri ilə qarşılaşmaq mümkündür.

Azərbaycan kino məkanında komediya filmləri daha çox çəkilir. Və qeyd etməliyik ki, həm də çox maraqlı, professional səviyyədə çəkilir. Komediyanın həyatın acı hadisələrini gülüşlə ifadə etməsini, bunun da tamaşaçıya təsir gücünü nəzərə alsaq, əlbəttə komediya filmlərimizə söz yoxdur. Lakin həddindən artıq gülmürükmü? Bəlkə bir qədər də təsirlənməyin, duyğulanmağın, tarixin yaddaşına atılmağın, qədirbilənliyin vaxtıdır...

Komediyadan fərqli olaraq bədii, sənədli, televiziya filmləri haqqında danışmaq bir qədər çətindir. Çünki tamaşaçı hələ də gözləyir. İkinci Vətən müharibəsindən, şəhidlərimizdən, müharibə iştirakçılarından, azad torpaqlarımızdan, bu torpaqların böyük hünər və rəşadətlə geri alınmasından, erməni adlı düşmənin rəzilliyindən, Qarabağın başına gətirdiyi oyunlardan, darmadağın yurdlardan, daşınıb aparılmış sərvətlərdən və Böyük Zəfərdən bəhs edən filmlər gözləyirik. Gözlədikcə də deyirik: haradasan, Azərbaycan kinosu?

## Arxivə atdığımız filmlər

Bəs biz bu gün Azərbaycan kinosunu hansı dərəcədə seyr edirik? Bir qədər də bu barədə danışaq. Çünki filmlər baxıldıqca yaşadılır. Bu gündən sabaha daşına bilir. Gənclərin təfəkkürünü formalaşdırır. Onlarda dünənimizlə bu günümüz arasında körpü yaradır.

Lakin yetişməyimizdə, formalaşmağımızda böyük əhəmiyyətə malik olan kinolarımızı illər öncə artıq arxivlərə atmışıq. Heç ölkə telekanalları da əvvəlki illərdəki qədər filmlərimizə yer ayırmır. İndi telekanallarda hind, türk, rus və sair film günləri mövcuddur ki, həmin günlərin məlum saatlarında o filmləri seyr etmək olar.

Azərbaycan kinosundan danışarkən xəyalən ötən illərə gedir insan. O zamanlar yaşadığımız şəhər, qəsəbə və kəndlərdə kinoya yollanırdıq. Fimlərə baxırdıq. Bizi ya məktəbdən müəllimlərimiz, ya da valideynlərimiz kinoya aparırdı. Bir-birindən maraqlı filmlər izləyirdik. Səhəri gün ədəbiyyat müəllimimiz həmin film haqqında inşa yazmağı da bizə tapşırırdı. Biz də yazırdıq, filmə, filmin ssenarisinə, aktyorlara, hadisələrə münasibət bildirirdik. Bütün bunların əhatəsində böyüyür, dünyagörüşümüzü formalaşdırırdıq.

Bəzən oxuduğumuz əsərlərin ssenarisi əsasında çəkilən filmlərə tamaşa edirdik. Bunlar bizim üçün daha maraqlı olurdu. Sanki kitabdakı hərflərin sözlərə çevrilib yaratdığı qiyabi mənzərələr birdən-birə gözlərimiz önündə əyanilәşir, obrazları həyatımıza gətirir və onların yaşadığı talelərlə bizi bir daha tanış edirdi. Bəzən olurdu ki, kinolardan elə təəssüratla ayrılırdıq ki, həftələrlə özümüzə gələ bilmirdik. Hadisələr bizi öz əsarəti ağuşuna alıb haradan haraya aparırdı. Bəzən filmlərdəki talelərdə öz həyatımızı görürdük, onu özümüzə daha yaxın hiss edirdik. Bəzən həyatımızda baş verən bir hadisənin cavabını məhz filmlərdə tapırdıq. Biz doğru hərəkət etməyi, qərar verməyi baxdığımız filmlərdən öyrənirdik. Bəzən, yox həmin filmdəki kimi etsək, daha yaxşı olar, deyib, planlaşdırdığımız addımdan vaz keçir, eynilə baxdığımız filmdəki kimi hərəkət etməklə heç də səhv etmədiyimizi təsdiq edirdik.

Necə ki, oxuduğumuz onlarla, yüzlərlə kitab bizi kamilləşdirir, həyatın sirrini-sözünü, düzgün seçimi, düzgün qərar verməyi, yaxşını pisdən ayırmağı, hansı addımın doğru, hansının yanlış olduğunu öyrədirdi, eləcə də baxdığımız onlarla film də həyatımızda eyni funksiyada idi.

Elə ki, 1990-cı illər arxada qaldı, qarşıdakı illərdə həyatımıza yavaş-yavaş internet, smartfon telefonlar daxil oldu, biz də yavaş-yavaş kinoteatrlardan, klublardan uzaqlaşmağa başladıq. Evlərimizə doğru geri çəkildik. Ta o evlərdən çıxıb film izləmək üçün yol getmədik, buna vaxt ayırmadıq. Başladıq internetdən, telefonlardan film izləməyə. Lakin bu, kinoteatrlarda geniş ekranlarda izlədiyimiz filmlər keyfiyyətdə oldumu ? Xeyr, olmadı. Həm də öz kinomuz getdi, yerinə dünyanın hər yerindən olan filmlər gəldi.

## Yeni dünyamızın yeni kinosu

Beləliklə yeni dünyamız yarandı. Yeni dünyamıza yeni filmlər qədəm qoydu. Teleseriallar yarandı. Aylarla, illərlə bitməyən seriallar. Həmin seriallar artıq neçə-neçə onilliklərdir ki, bizləri özünə bağlayıb. Biz olmuşuq həmin serialların aludəsi, bəzi hallarda isə xəstəsi. Onlarla mövsümə başlayıb, onlarla mövsümü tamamlayırıq.

*Ardı Səh. 6*

# Azərbaycan kinosu: kimdir günahkar?

Əvvəli səh. 5

Dikilirik televizorların qarşısına, saatlarla mentalitetimizə, adət-ənənələrimizə, yaşam tərzimizə uyğun olmayan serialları izləmək üçün.

Daha sonra yeni-yeni film proqramları ortaya çıxdı. Başladıq həmin proqramlar vasitəsilə filmlər izləməyə. Baxdıq ki, bu filmlər biz baxdığımız filmlərdən çox fərqlidir. Bu filmlərdə dəhşətlər, vəhşətlər gördük, söyüşlər eşitdik. Bir canlının həyatına qıyıb, əsla narahat olmayan insanları gördük. Həyatımıza, cəmiyyətimizə heç uyğun olmayan mənzərələrlə qarşılaşdıq.

Bir vaxtlar ailəliklə film seyr etdiyimiz təqdirdə, bunun artıq əsla mümkün olmadığını dərk etdik. Nəticədə uşaqları bizimlə birlikdə film seyr etməkdən uzaqlaşdırdıq. Belə olanda isə uşaqlarımız daha dəhşətli filmlər izləməyə başladılar. İnternet klublarında dava-dalaş, vuruşma, ölüm, dəhşət və vəhşət dolu filmlər təqdim olundu övladlarımıza. Uşaqlarımız da həmin filmləri izləmək üçün min bir həvəslə internet klublara yollandılar. Aludəçiyə çevrildilər. Biz də uşaqları evlərimizə yığmaq üçün gedib həmin filmlərin diskini alıb evə gətirdik və gözümüzün qarşısında "baxın",- dedik. Ta demədik ki, bu uşaq nəyə baxır, niyə baxır?..

Yeni dünyamızda əslində nə uşaqlarımız, nə də özümüz yaşadığımız həyata uyğun olmayan filmlərə baxmağa başladıq. Öz ölkəmizin istehsal etdiyi filmlər artıq evlərimizdən, telefonlarımızdan uzaq düşdü. Hə, nə olar, adam tək öz filmlərinə baxmaz ki, xarici filmlərə də baxmaq, oxuduğumuz kitablardakı kimi dünya ölkələri ilə də tanış olmaq gərəkdir. Lakin biz bu gərəklilərdən çox gərəksizlərə qapımızı açdıq. Ayağımız kinoteatrlardan kəsildi. Evimizdə oturub dünyanın bütün ölkələrinin filmlərini izləməyə başladıq. Valideyn bir tərəfdə, uşaq bir tərəfdə... Bir də başımızı qaldırıb ətrafa, dünənə baxanda itirdiklərimizin çox olduğunu gördük. Lakin artıq çox gec idi.




Azərbaycan kinosu vikipediyasında uşaq filmləri bölməsində cəmi 6 uşaq filmi yer alır. "Ağ atlı oğlan"(1995), "Asif, Vasif, Ağasif"(1983), " Bir qalanın sirri"(1959), "Qərib cinlər diyarında"(1977), "Sehrli xalat"( 1964), " Şir evdən getdi"(1977). Vəssalam. Bəs haradadır digər uşaq filmləri? Böyük bir xalqın cəmi 6 uşaq filmi varmı? Axı uşaqlarımız onlar olmadıqca xarici ölkələrdə istehsal olunan, bizə təklif edilən yüzlərlə uşaq və cizgi filminə rəqəmsal platformalara nəzarətimizin yoxluğu səbəbindən baxmalı olur. Bu filmlər isə bizim dəyərlərimizdən, mentalitet və ənənələrimizdən xəbərsizdir. Bir də görürük ki, uşaqlarımız iki qızın, iki oğlanın evlənməsindən bəhs edən filmlərə baxır. Vəhşiliyi, tərbiyəsizliyi, özbaşınalığı özündə ehtiva edən, cəmiyyətimizlə əkslik təşkil edən filmlərə baxır.

Bəs bu mühitdə böyüyən uşaqların gələcəyi necə olacaq? Bax, bu, bizi bu gün düşünməyə vadar etməlidir.





## Kimdir günahkar?..

İndi nümunə üçün gedib məktəblərimizdə bir sorğu keçirsək, sual etsək ki, kim axırıncı dəfə hansı Azərbaycan filmini izləyib, bu suala neçə şagird və hansı şəkildə cavab verəcək, bu, aydındır. Bu gün yetişməkdə olan gənc nəslin əksəriyyəti filmlərimizi seyr etməyib. Adlarını da bilmirlər. Bəzi intellektual yarışmalar var ki, orada filmlərimizdən göstərilən bir parçanın hansı filmə aid olduğunu iştirakçıların heç biri bilmir. Hətta yüksək səviyyədə təhsil alan, yüksək bal toplayan şagirdlər belə. Bu, o deməkdir ki, artıq gənc nəsil filmlərimizdən xəbərsizdir. O qədər gözəl ənənələr, adətlər, mental və ailə dəyərlərini özündə yaşadan filmlərdən çox uzaqdadır.

Bütün bunlar üçün isə onlar deyil, biz günahkarıq. Onların böyükləri- ata-anaları olan bizlər. Çünki biz vaxt ayırıb uşaqlarımızla birlikdə bu filmləri izləməmişik. Bunun əvəzinə tanış olmadığımız adətlər çərçivəsinə uyğun film disklərini alıb uşaqlarımıza verib onların bu filmləri izləməsinə səbəb olmuşuq. Sabahısı gün tərbiyələrində bir problem ortaya çıxanda isə, "bu uşaq gedib kimə oxşadı?", "bu nə üçün belə hərəkət edir?",- deyə onları tənbeh etməyə başlayırıq. Ancaq düşünmək istəmirik ki, övladımıza nə etmişiksə, özümüz etmişik.

Beləliklə, internetdən düzgün yararlana bilməməyimiz, kinoteatrlardan ayağımızı kəsməyimiz, evimizdən filmlərimizi uzaqlaşdırmağımız qarşımızda yeni bir dövr açır. Bu dövrdə itmiş adət-ənənələrimiz, cəmiyyətimizə xas olmayan əlamətlər, uzun illərdən bəri xalqın qoruyub saxladığı dəyərlərdən başqa hər şey görünür. Düşünəndə isə deyə biləcəyimiz tək bir söz var: təəssüf.

## Bəs ikinci günahkar?..

Demirik ki, müasir dövrdə yaxşı filmlərimiz yoxdur. Var. Lakin daha çox olmalıdır. O qədər olmalıdır ki, ölkənin gənci də, yaşlısı da, uşağı da öz zövqünə görə baxmağa film tapa bilsin. Odur ki, ikinci günahkar isə bu gün sanballı filmlər çəkib ortaya qoya bilməyən rejissorlardır.Biz Böyük Zəfər əldə etdik. Hanı 44 günü özündə əks etdirən filmlər gözləyir. Axı bu gün onların sayı-hesabı olmamalıdır. Bir qərinəyə yaxın dövrü əhatə edən işğal dövrü, qaçqın, köçkün dərdi və bütün bunların sonunda isə Zəfər, şəhidlərimiz, qazilərimiz, Vətən övladları... Bunların hər biri bir filmin mövzusu deyilmi? Biz Zəfərimizdən bəhs edən filmlər istəyirik.

## Gəlin günahlardan arınaq

Günahlardan arınmağın vaxtıdır. Azərbaycan filmlərini arxivlərə göndərən bizlər ilkin olaraq günahdan arınmalıyıq. Qapımızı Azərbaycan filmlərinə açmalıyıq. Övladlarımıza öz filmlərimizə baxmağı tövsiyə etməliyik. Müəyyən vaxt təyin edib onlarla birlikdə yerli filmlər seyr etməliyik.

Kinostudiyaların, rejissorların da günahlardan arınmaq vaxtıdır. Çünki kinomuzda böyük bir boşluq yaranıb. Bu boşluq dolmazsa, böyük tarixə malik olan Azərbaycan kinosunun vəziyyəti necə olar?

Azərbaycan kinosu günü ərəfəsində həm olanlardan, həm də olmayanlardan danışdıq. Olanlar onsuz da bizimdir. Gəlin olmayanların olmasına çalışaq. Sabah gec olar.

Bayramın mübarək, Azərbaycan kinosu! Bayramınız mübarək, kino işçiləri!

***Mətanət Məmmədova***

# Bayraktar Aşqabada niyə uçdu?




İyulun 30-da Türkiyənin energetika və təbii ehtiyatlar naziri Alparslan Bayraktar Türkmənistana işgüzar səfərə gəlib və burada Türkmənistanın energetika naziri Annageldi Saparov, "Türkmengeologiya" dövlət korporasiyasının sədri Qurbanqeldi Qarlyev və "Türkmənqaz" dövlət konserninin rəhbəri Maksat Babayev ilə danışıqlar aparıb. Çərşənbə günü Bayraktarın Türkmənistanın digər müvafiq rəsmiləri, eyni zamanda Türkmənistan prezidenti Serdar Berdiməhəmmədovla görüşü nəzərdə tutulub. Səfərini gözləyən Bayraktar Türkiyə mətbuatına bildirib ki, türkmən qazının İran və Azərbaycan vasitəsilə Türkiyəyə






tədarükü ilə bağlı danışıqlar aparmaq üçün Türkmənistana gedir: "Türkmənistan ilkin olaraq Türkiyəyə 1,5-2,0 milyard kubmetr təbii qaz ixrac edə bilər. Eyni zamanda o, Türkiyə ilə Türkmənistan arasında bu məsələ ilə bağlı mövcud müqavilələrə də toxunub.

Həqiqətən də, bu ilin mart ayında türkmən xalqının ali rəhbəri Qurbanqulu Berdiməhəmmədovun Türkiyəyə səfəri zamanı tərəflər arasında gələcək müqavilə çərçivəsini müəyyən edən iki deklarativ sənəd imzalanmışdır. Bayraktarın Aşqabad səfərindən sonra cavablandırıla biləcək suallar başlayır. Və yaxud bəlkə də belə suallar ortaya çıxmaya da bilər. "Azərbaycan tərəfi ilə heç bir problem yoxdur və artıq iyun ayında BOTAŞ SOCAR ilə tranzit sazişi imzalayıb". Söhbət 2024-cü il iyunun 4-də Azərbaycanın dövlət şirkəti SOCAR ilə Türkiyənin BOTAŞ şirkəti arasında Türkmənistan qazının Azərbaycan və üçüncü ölkələr vasitəsilə Türkiyəyə nəqlinə dair əməkdaşlıq sazişinin imzalanmasından gedir.

Başqa bir tranzit ölkəyə gəlincə, Bayraktar artıq o qədər də ümidli deyil: "Ümid edirəm ki, İran da lazımi konstruktiv mövqe nümayiş etdirəcək ki, gələn il türkmən qazı Türkiyəyə axmağa başlasın". Ayrı-ayrılıqda qeyd etmək lazımdır ki, Türkmənistan-İran-Azərbaycan marşrutu üzrə Türkmənistan qazı faktiki olaraq son bir neçə ildə Türkmənistan-İran-Azərbaycan üçtərəfli razılaşmasına uyğun olaraq Türkiyə və Avropaya nəql olunurdu və sonuncunun bu qaza ehtiyacı var idi. Həcmlər təxminən eyni 1,5-1,8 milyard kubmetr idi. Bayraktarın indi danışdığı haqqında danışdığı qaz avropalılar tərəfindən alınanda türkmən yox, azərbaycan qazı olur və bu da hamını qane edir. "Şahdəniz" yatağında yeni hasilat güclərinin işə salınmasından sonra Azərbaycanın sadəcə olaraq türkmən qazına ehtiyacı yox idi. Kənardan qaz almaq lazımsız hala gəlmişdi, çünki Avropaya mövcud nəqletmə imkanları Azərbaycanın özü tərəfindən təmin edilir.

Bundan başqa, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə türkmən qazının Azərbaycan ərazisindən tranziti mövzusunda çıxış edib və Türkmənistan hakimiyyətini ya Transxəzər qaz kəmərinə, həm də mövcud Azərbaycan qaz kəmərinə paralel kəmərə sərmayə qoymağa çağırıb. TANAP və ya bu layihələr üçün borc vəsait axtarmaq, Azərbaycanın öz qaz hasilatını və Avropaya tədarükünü artırmağı planlaşdırdığını bir daha vurğulayır. Eyni zamanda, Rusiya qazının Avropaya çatdırılması üçün Azərbaycanın TANAP-dan istifadə etməklə bağlı danışıqlar kölgədə qalır. Məsələ ilə bağlı rəsmi məlumat olmasa da mövzu açıq qalır.

Buna baxmayaraq, Bayraktar israrlıdır. "İnfrastruktur üçün əlavə böyük investisiyalara ehtiyac yoxdur" deyən nazir "A Haber" televiziyasına müsahibəsində bildirib ki, Türkiyənin iştirakı olmadan əvvəllər mövcud olan SWAP sxemini sadəcə yeniləməklə, Türkmənistana qaz tədarükünə başlamaq üçün siyasi bəyanat verilə bilər. Türkiyə sadəcə bir neçə əlavə kağızı imzalamaqla məsələni müsbət şəkildə həll edə bilər.

Bununla belə, məhz iyulun 31-də Bayraktarın Türkmənistan prezidenti ilə danışıqlarından sonra məsələ öz həllini tapıb. Avropa 2024-cü ildə 13 milyard kubmetr Azərbaycan qazı alacaq. Bu da 2023-cü ildəkindən təqribən 8% çoxdur. Aşqabaddakı Türkmənistan-Türkiyə danışıqlarından sonra da məlum oldu ki, Azərbaycanın Türkmənistan qazının pulsuz nəqli üçün həcmləri olmayacaq.

Türkiyənin BOTAŞ şirkəti xəbər verir ki, "Şahdəniz qaz kəməri sistemində (yataqdan qazın ixracı üçün) planlaşdırılmış texniki xidmət və təmir işləri ilə əlaqədar Türkiyənin milli qaz paylayıcı şəbəkəsinə təbii qazın tədarükü həyata keçirilir. Qazın verilişinin dayandırılması sadəcə təsadüf ola bilər, lakin Aşqabad danışıqları günü, iyulun 31-də müsahibəsində Trans Adriatik Qaz Boru Kəməri (TAP) TAP AG Luca Schiepatti TAP AG-nin Azərbaycan qazını Avropa ölkələrinə çatdırmaq üçün qaz kəmərini genişləndirməyə başladığını və bunun istehlakçılara illik tədarükünü 2026-cı ildən 1,2 milyard kubmetr artıracağını bildirib. Xatırladaq ki, TAP AG-nin öz sərmayələri ilk mərhələdə 132 milyon dollar təşkil edəcək.

Belə görünür ki, Azərbaycanın türkmən qazının alınması ilə bağlı Türkiyənin layihəsində iştirakla bağlı başqa planları və ya yeni tələbləri var. Hər halda, Azərbaycan tərəfi hər cür nümayiş etdirib ki, hazırda Azərbaycan kəmərində türkmən qazına yer yoxdur. Ola bilsin ki, Türkiyə Türkmənistandan qazın alınması ilə bağlı deklarativ xarakterli siyasi sazişlər imzalayan Macarıstan və Avstriyanın yolu ilə gedəcək, praktiki icranı kommersiya strukturlarının öhdəsinə buraxacaq. Görünür, Bayraktar Aşqabada məhz buna görə uçub - sırf danışmaq üçün.

**V.VƏLİYEV**



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Paşinyan sülh əvəzinə müharibəyə sürüklənir

Fransa hakimiyyəti hazırkı Ermənistan iqtidarını Qərbdəki siyasi təxribat qruplarının qanlı planları üçün açıq şəkildə maşa halına gətirib çıxarıb. Hazırda Parisdə keçirilən Olimpiya Oyunlarında yerli publikanın fitə basdığı, siyasi imici yerin dibinə girən və ən dəhşətlisi hazırda Fransa boyda ölkəni Ermənistan kimi xırda "quberniyanın" maraqları üçün alətə çevirən Emmanuel Makron var gücü ilə rəsmi İrəvanı Qafqazda ikinci Ukrayna halına gətirməyə çalışır. Özü kimi iradəsiz və istənilən təxribat planı üçün alət olmağa hazır olan Nikol Paşinyanı da yanına qoşan Yelisey Sarayının hazırkı sahibi, bu qanlı planlar üçün Avropa İttifaqını da ortağı halına gətirə bilib.

## Avropa İttifaqının Ermənistana vəd etdiyi 270 milyon avro QAN PULU...

Diqqət edin: Avropa İttifaqının Ermənistana qarşıdakı dörd ildə 270 milyon avro, ABŞ-ın isə 65 milyon dollar "yardım" ayırması acından gəbərən, sosial səfalət içində çapalayan erməni əhalisi üçün nəzərdə tutulan hansısa xeyirxahlıq addımı deyil. Bu "yardım paketi" birbaşa erməni əhalisinin növbəti qanlı toqquşmada başını aldatmaq üçün ayrılan QAN PULUDUR. Onlar heç kimə havayı pul bağışlamırlar. Yəqin Ermənistanda salınacaq yeni-yeni məzar daşları üçün öncədən ayrılan "təsəlli puludur". Çünki Avropa İttifaqının (Aİ), ABŞ-ın Ermənistana vəd etdikləri yüz milyon dollarlıq "yardımlar"ın əsas məqsədi erməni əhalisinin sosial baxımdan Avropaya inteqrasiyası üçün deyil, məhz Cənubi Qafqazı yenidən hərbi poliqona, qarşıdurma məkanına çevirmək üçündür.

Hələ Laçın sərhəd buraxılış- keçid məntəqəsi yaradılanda, Avropa İttifaqının Ermənistanın sərhəd bölgəsində hadisələri durbinlərlə "müşahidə edən" mavi gödəkçəli erməni havadarlarının çıxardıqları oyunlar yaxın aylarda baş verən Qərbin ikili standartlar şousunun təzahürü idi. Hələ canım sənə desin, Cənubi Qafqazda sülhün bərqərar olmasına, Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması üçün Avrora İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə keçirilən üçtərəfli görüşlərdəki "səmimiyyət səhnələrini" də unutmamışıq. Hər şeyi yaxşı xatırlayırıq.

## Qərbdəkilər ikili oyunlara, sülh əvəzinə müharibə planlarına ara vermirlər...

Artıq son günlərdə Ermənistan ordusunun Azərbaycanın mövqelərini atəşə tutması pərdəarxası təxribat planlarının işə salındığını da sübuta yetirir. Brüsseldə, Parisdə nə planlaşdırılarsa, onu da işə salırlar. Açıq görünən odur ki, Qərbdəkilər ikili oyunlara, sülh əvəzinə müharibə planlarına bir an da ara vermirlər. Oksfordda keçirilən "Avropa Siyasi Birliyi"nin dördüncü Sammiti çərçivəsində Prezident İlham Əliyevlə görüşməkdən yayınan N.Paşinyan, əslində, aldığı tapşırıq əsasında hərəkət edir. Bir ara sülh sazişi barədə nağıllar səsləndirən və bununla həm yerli erməni əhalisinin rəğbətini qazanmaq həm də rəsmi Bakının etibarına sahib olmağı düşünən Nikol Vavayeviç, bu gün daha hansısa diplomatik bəhanə uydurmağa, özünü əziyyətə salıb "sülh göyərçini" cildinə girməyə ehtiyac da duymur. Əslində, hələ aprelin 5-də Brüsseldəki ABŞ, Avropa İttifaqı (Aİ) və Ermənistan arasındakı üçtərəfli görüşdən məlum oldu ki, nə Qərb, nə də ABŞ bölgədə sülh tərəfdarı deyillər. Onların niyyətləri Cənubi Qafqazı geosiyasi qarşıdurma poliqonuna çevirmək, Suriya, Ukrayna təcrübələrinin bu bölgədə təkrarlamasına nail olmaqdır.

## Hər oyuncağa uşaq kimi sevinən Ermənistan...

ABŞ dövlət katibi Antoni Blinkenin Brüsseldə Aİ-ABŞ-Ermənistan üçtərəfli görüşündən əvvəl söylədiyi "Biz Ermənistan xalqının gələcəklə bağlı baxışlarını bölüşürük və bu ölkənin güclü, müstəqil və qonşuları ilə sülh şəraitində yaşamasını və region ilə əlaqələnməsini istəyirik. ABŞ və Aİ bu səylərinin həyata keçməsində tərəfdaşdır" sözləri də pərdələmə siyasətindən başqa bir şey deyildi. Açıq görünən odur ki, rəsmi İrəvanı bölgədəki maraqları üçün stukaçıya çevirən ABŞ-Aİ cütlüyü müxtəlif bəhanələrlə sülh sazişinin imzalanmasına əngəllər törədirlər. Rusiyanı Cənubi Qafqazdan çıxarmaq istəyən Aİ və ABŞ hər oyuncağa uşaq kimi sevinən Ermənistandan istifadə edərək xam məhsul kimi, istədikləri səmtə uyğun idarə edirlər.

Əlbəttə, Azərbaycan dövləti Ermənistanla münasibətlərin normallaşdırılması, iki ölkə arasında şərti dövlət sərhədinin delimitasiyası, demarkasiyası, yekun sülh sazişinin imzalanması, nəqliyyat kommunikasiyalarının bərpası ilə bağlı danışıqları davam etdirmək əzmindədir. Lakin N.Paşinyan hökumətinin son addımları bu siyasi reallığı ortaya qoyur ki, Ermənistan iqtidarı beynəlxalq siyasi oyunçuların əlində maşa rolunu oynayır və onun sülh sazişi barədə müstəqil mövqeyi ola bilməz. Axı N.Paşinyan sülh əvəzinə müharibəyə sürüklənir...

# Pezeşkian İranda nələr etmək istəyir? Bunları bacara biləcək?



Məsud Pezeşkian İran siyasətinin illərdir davam edən təktipliliyindən sonra 54 faiz səslə seçilib. Dünən andiçmə mərasimindən sonra rəsmi vəzifəsinə başlayan Pezeşkianın necə siyasət yürüdəcəyini anlamaq üçün seçki prosesi və onun arxa fonunu görə bilmək vacibdir. Pezeşkiana səs verənləri iki yerə bölmək olar: Dəyişiklik istəyənlər və radikal mühafizəkar siyasətdən uzaqlaşmaq istəyənlər. Birinci hissəyə islahatçılar, etnik və məzhəb azlıqları, ikinci hissəyə isə nisbətən daha mühafizəkar kütlə daxildir. Deməli olar ki, hər iki kütlənin ortaq gözləntiləri və tələbləri var. Pezeşkianın əsas siyasi məqsədlərindən biri ölkə daxilində xalqla dövlət arasında gərgin münasibətləri mülayimləşdirməkdir. Xarici siyasətdə isə o, İranı təhlükəsiz bölgə kimi müharibə və münaqişə zonalarından uzaqda tutmaq istəyir. Digər tərəfdən, iqtisadi böhran kimi mühüm məsələlər var ki, buna görə illərdir ictimai-siyasi həyat təsirlənib. Beləliklə yeni prezidentin diqqətinin əsasən bu sahəyə yönələcəyini deyə bilərik.

Pezeşkiandan gözlənilənlərin baş tutub-tutmayacağını, sistemdəki digər güc mərkəzlərinin fəaliyyəti və ya fəaliyyətsizliyi müəyyən edəcək. Dini lider Ayətullah Əli Xameneinin bu barədə digər güc mərkəzlərinə mesajı "Yeni prezidentlə harmoniyada çalışın" olub. Onun bu çağırışının nə qədər formal və ciddi olub-olmadığını yeni dövrdə görəcəyik. Bununla belə, Nazirlər Kabinetinin formalaşması mərhələsində keçmiş xarici işlər naziri Cavad Zəriflə bağlı mübahisələr göstərir ki, İran siyasi sisemini harmoniya deyil, gərginlik gözləyir. Digər tərəfdən, Pezeşkianın hökumət sistemindən bəzi tələbləri olduğu qədər, xalqın da ondar bəzi tələbləri var. Bunlardan ən mühümləri xüsusilə Məhsa Əmininin ölümündən sonra ölkə daxilindəki siyasi krizin aradan qaldırılması və xalq-dövlət qarşılıqlı bağlarının bərpasıdır. Xamneyinin bu mövzuda Pezeşkiyanı dəstəkləməyə davam edəcəyi gözləniləndir..

İranın xarici siyasəti və xüsusən də regional siyasəti mürəkkəb bir sahədir. Çünki müxtəlif aktorlar bu sahədə söz sahibidirlər. Prezident əsas aktyor kimi proseslərə təsir etsə də, yekun qərar ona aid deyil. Ali Milli Təhlükəsizlik Şurası və Parlament kimi digər güclü aktorlar da İranda xarici siyasətdə qərarverici kimi yer alırlar. Bundan əlavə, İnqilab Keşikçilərinin regional siyasətə təsir etmək imkanları yüksəkdir. Beləliklə İranda prezidentdən daha önəmli və güclü olan sistem var. Bu səbəbdən Prezident dəyişikliklərinin İranın geosiyasi məsələlərdəki mövqeyinə radikal təsir göstərəcəyini gözləmək olmaz. Bəzi sahələrdə dini liderin də məqsədəuyğun hesab etdiyi dəyişikliklər ola bilər, lakin radikal dəyişikliklərin olacağı gözlənilən deyil. Məsələn, xarici siyasət və iqtisadiyyat sahələrinə aid olan nüvə sanksiyaları ilə bağlı atılacaq addımların ritmini Pezeşkian hökuməti müəyyən etsə də, bu addımların ölçüsünü Xamenei müəyyən edəcək. Məlumdur ki, Xamneyi ABŞ-la birbaşa danışıqların tərəfdarı deyil. Digər tərəfdən, İran tərəfi danışıqlara hazır olsa belə, ölkədəki siyasi vəziyyətə görə ABŞ tərəfinin İrana qarşı xoşməramlı siyasət həyata keçirməyəcəyi aydındır.

İrandakı siyasi sistemə status-kvo perspektivindən baxarsaq Zəngəzur Dəhlizi layihəsi ilə bağlı siyasətində də heç bir dəyişiklik gözlənilmir. İran Naxçıvanla Azərbaycanı birləşdirən və İranın regional tranzit önəmini azaldan Zəngəzur dəhlizi layihəsini sərhəd dəyişikliyi kimi qiymətləndirdiyini və buna "imkan verməyəcəyini" dəfələrlə vurğulayıb. Belə ki, bu dəhlizin qurulması İranın maraqlarına ziddir və Pezeşkian bunu kökündən dəyişdirə bilməz. Bununla belə, Pezeşkianın bəzi xüsusiyyətləri onun Azərbaycanla və Türkiyə ilə münasibətləri yaxşılaşdırmağa çalışacağını göstərə bilər. Bu dönəmdə tərəflərin alternativ layihələr üzərində işləməyə başlaya biləcəyi də gözləniləndir. İran və Azərbaycan arasında son illərdə yaşanan gərginliklərdən dolayı sərhədin İran tərəfində olan türk xalqlarının dövlətə olan etirazları da kifayət qədər təhlükəli məsələlərdən olub. Bu məqamda Pezeşkiyanın vurğulamaqdan heç vaxt çəkinmədiyi və qürur duyduğu türk kimliyi İran azərbaycanlıları ilə İran dövləti arasında soyuqluğun aradan qaldırılmasında yararlı ola bilər. Onun Azərbaycan dili və başqa dillərdə təhsil islahatları ilə bağlı planları bunun əsas göstəricisidir.

***Zərdüşt Quluzadə***

# "Bu görüş Azərbaycan-Ermənistan arasındakı müsbət irəliləyişlərə paralel aparılır"



"Türkiyə və Ermənistanın normallaşma üzrə xüsusi nümayəndələri Sərdar Kılıç və Ruben Rubinyan arasında görüş baş tutub". Bu sözləri SİA-ya açıqlamasında deputat Naqif Həmzəyev deyib.Deputat bildirib ki, ilk növbədə bu görüşün əsas məqsədi Akyaka dəmir yolu sərhəd qapısının regional inkişafa uyğun olaraq istifadəyə veriləcəyi təqdirdə tələb olunan texniki ehtiyacların qiymətləndirilməsidir: "Yaxın dövrdə bunun reallaşması, tədbirləri həyata keçirə bilmək üçün hazırlıq məqsədi daşıyır. Eyni zamanda heç bir ilkin şərt olmadan diplomatik pasporta sahib şəxslərin viza alma prosedurlarının asanlaşdırılması ilə bağlı müzakirələrin aparılmasıdır.Sonuncu belə bir görüş 2022-ci ildə baş tutmuşdu. Artıq iki il idi ki, məhz Ermənistan və Türkiyə arasındakı normallaşmaya dair təyin edilmiş xüsusi şəxslər arasında görüş baş tutmurdu. Bu görüş çox maraqla qarşılandı. Xüsusilə də, 2024-cü ildə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi və sülh anlaşmasının imzalanmasına dair hazırlıqların xeyli irəliləməsini nəzərə alsaq, məhz bu görüşün də baş tutması Azərbaycan-Ermənistan münasibətlərindəki müsbət irəliləyişlərə paralel olaraq həyata keçirilir. Ancaq istənilən halda Ermənistan və Türkiyə arasında sərhədlərin bağlı olmasının əsas səbəbi Dağlıq Qarabağ probleminin olması, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 20%-nin işğal edilməsi, bu işğala son verilməsi ilə əlaqədar idi".Onun sözlərinə görə, 2020-ci ildə Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbə qazanmasından sonra Azərbaycanın birbaşa istəyi ilə sülh prosesinin həyata keçirilməsi ilə əlaqədar müxtəlif platformalarda görüşlər baş tutdu: "Buna paralel olaraq Ermənistan-Türkiyə arasında da normallaşmaya dair xüsusi nümayəndələr təyin edildi. Hətta Ermənistanın baş naziri Türkiyəyə səfər etdi. Ermənistanın xarici işlər naziri Türkiyədəki Antalya diplomatik forumuna qatıldı.

Bir sözlə, 2020-ci ildən başlayaraq həm Azərbaycan-Ermənistan arasındakı münasibətlərin normallaşması, sülhün əldə edilməsi ilə bağlı müxtəlif tədbirlər həyata keçirildi. Buna paralel olaraq da Türkiyə-Ermənistan arasında da normallaşmanın əldə edilməsi və sərhədlərin açılacağı təqdirdə proseslərin necə irəliləməsinə dair müzakirələr aparıldı. Düşünürəm ki, məhz sonuncu belə görüşün baş tutması istənilən halda yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında sülh əldə ediləcəyi təqdirdə Türkiyə-Ermənistan arasında da sərhədlərin açılması və mərhələli şəkildə münasibətlərin normallaşmasına hazırlıq kimi dəyərləndirilməlidir. Bütün bu proseslərin məntiqi nəticəsinin əldə edilməsi, həqiqətən də, real normallaşmaya nail ola bilməyimiz üçün ilk növbədə Ermənistan Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidir. Mütləq referendum edərək öz konstitusiyasında dəyişiklik etməlidir. Xüsusilə də, Türkiyəyə qarşı soyqırımı iddialarından tamamilə əl çəkməli və münasibətlərin normallaşmasında səmimi olmalarını sübut etməlidirlər. Belə olacağı təqdirdə düşünürəm ki, biz ən yaxın zamanda sülhü əldə edə biləcəyik".

***Söylü Ağazadə***



# Təhlükədə olan təhlükəsizliyimiz

**Elçin Bayramlı**

***İnformasiya müharibəsi getdikcə daha fərqli müstəvilərə keçir. Son vaxtlar baş verənlər göstərir ki, nəinki peşəkar agent, adi bir küçə uşağı da saxta bir informasiya ilə savadsız kütlənin başına nə oyun desən aça bilər, onun fikrini, münasibətini hara istəsən yönəldə bilər. Küçə dezinformasiyalarına reaksiyalar göstərir ki, nəinki kütləni, özlərini ziyalı, jurnalist, ictimai xadim sayanların çoxunu da asanlıqla avam yerinə qoyub aldatmaq mümkündür- necə ki, çox uzun müddətdir belə də edirlər.***

"Deyirlər, filan şey filandır", "eşitdiyimə görə, filan hadisə olub", "feysbukda yazmışdılar ki, filankəs ", "vatsapda yayılıb" söhbətləri ilə istənilən məlumatı sürətlə hamıya yaymaq və azı 80-90 faiz insanı buna inandırmaq mümkündür.

Bu dezinformasiya sisteminin çox fərqli istiqamətləri və fərqli üsulları var. Məsələn, neçə illərdir sosial şəbəkələrdə bir saxtakarlıq metodu tətbiq olunur- bir nüfuzlu liderin və ya ictimai şəxsin şəkli qoyulur, altında istənilən fikir yazılır, şərhlərdə yüzlərlə, minlərlə aldanmış adam başlayır onu söyməyə. Heç kim tələb etmir ki, ay adam, zəhmət olmasa bu adamın bu sözü dediyi video materialı bura qoy görək.

İstənilən nüfuzlu şəxsi, təşkilatı, şirkəti ləkələmək üçün onun rəqibləri və ya düşmənləri sosial şəbəkələrdə və ya hansısa saytda bir saxta kompramat yayır, sonradan bunun yalan olduğu ortaya çıxsa belə, artıq cəmiyyətdə lazımi rəy yaradılıb və təkzib məlumatı onların çox azına çatır. Üstəlik, ilkin mənbəni də əksər hallarda bilmək, tapmaq olmur. Çünki ilk mənbələr saxta sosial şəbəkə hesabları və ya xaricdəki saytlar olur.

Daha bir metod da milli və dövlət mənafeləri əleyhinə yayılan dezinformalarla bağlıdır. Bu işlə əsasən xarici agentura şəbəkələrinin nüfuz agentləri peşəkar şəkildə məşğul olur. Hətta bu yollarla etnik, dini, sosial, siyasi motivli qarşıdurmalar da təşkil etmək mümkündür, necə ki bəzi ölkələrdə bunu dəfələrlə effektli şəkildə təcrübədən keçiriblər. Bu sistemdən daha çox, qərb dövlətlərinin texnoloqları geniş istifadə edir və öz düşmənləri olan ölkələr və qüvvələr haqda mənfi rəy yaratmaq üçün uğurla tətbiq edirlər. Digər ölkələr də bu metodlardan bəhrələnir.

Bunların tələsinə milyonlarla savadsız adam düşür və beləliklə "su qiymətinə" ictimai rəy formalaşdıra bilirlər. Bəziləri isə sadəcə savadsız gənclərdir- hardasa belə bir dezoya rast gəlib və bu da başlayıb davam etdirməyə. Belələri özləri də bilmədən hansısa xarici dairəyə işlədiklərini və ondan alət kimi istifadə edildiyini belə anlamır.

İnformasiyanın ən qiymətli və ən vacib şey olduğunu informasiya əsrində daha aydın görmək olur. Xüsusən də gəncləri və savadsız şəxsləri aldatmaq daha asandır. Onlar bir neçə saxta informasiya ilə rahatca tələyə düşürlər və özləri də bilmədən xarici qüvvələrin informasiya ordusunda müftə xidmət edirlər.

Yalnız savadlı, təcrübəli, ağıllı, məntiqli adamları aldatmaq mümkün deyil. Onlar belə saxta dezoları görəndə- "zəhmət olmasa mənbə göstərin", "rəsmi sənəd göstərin", "yazdığınızı sübut edin" deyə tələb edir və yalanı ifşa edirlər. Təəssüf ki, beləleri çox azdır. Hamı belə etmədikcə, savadsız kütlənin başına nə oyun desən açmaq olacaq. Belələrini sıradan çıxarmaq üçün çox sadə yolu var- onları kütləvi şəkildə blok etmək. Lakin kütlə bunu edəcək deyil. Çünki hansı informasiyanın hansı qüvvələr tərəfindən nə məqsədlə ortaya atıldığını dərk edə bilmir. Dərk edənlər isə nəsə etmirlər. Bu isə ölkəmizin və cəmiyyətimizin informasiya təhlükəsizliyinin təhlükədə olduğunun göstəricisidir.

Ona görə də, dövlət informasiya təhlükəsizliyini təmin etməlidir. Təklif edirəm ki, sosial şəbəkələrə, saytlara həm dövlət, həm ictimai nəzarət mexanizmləri formalaşdırılsın. Biləərəkdən saxta məlumat yayan mənbələr aşkar olunaraq sərt cəzalandırılsın. Xarici mənbələrdən belə məlumat yayan resurslara ölkə ərazisindən giriş qadağan edilsin, qlobal sosial şəbəkələrdə belə məlumatlar yayılanda müəyyən üsullarla həmin profil və ya səhifə blok edilsin. Bu kimi digər tədbirlər də görülməlidir. Əks halda, təhlükəsizliyimiz təhlükə altında qalacaq.

***Fransa müstəmləkə sistemini qoruyub saxlamaq niyyəti və cəhdi ilə hətta bütün dünyanı belə nüvə müharibəsinə sürükləməyə hazırdır. Rəsmi Parisin hazırda apardığı siyasət deyilənləri təsdiq edir. Təsdiq edir ki, Fransa heç də öz müstəmləkə siyasətindən əl çəkmək niyyətində deyil və həmin siyasəti bundan sonra da davam etdirmək məqsədi göz önündədir.***

# Fransanın əl çəkmədiyi MÜSTƏMLƏKƏÇİLİK ƏNƏNƏSİ




## Paris hansısa bəhanə ilə yenə də özünün müstəmləkəçilik siyasətini davam etdirmək qərarına gəlib

Diqqətə çatdıraq ki, Fransa silahlı qüvvələrinin yeni strukturu olan Afrika Komandanlığı 2024-cü il avqustun 1-də fəaliyyətə başlayacaq. Həmin yeni struktur guya "Rus təsirinin Afrikada yayılmasının qarşısını almaq" məqsədi ilə yaradılır. Halbuki, belə bir məqsədin bəyan edilməsi əslində, bir bəhanədir. Fransa birinci dəfə deyil ki, hansısa bəhanə ilə istədiyinə nail olmağa çalışır. Bütün bunlar onu deməyə əsas verir ki, istənilən halda belə bir fikir formalaşdırmaq heç də səbəbsiz və əbəs yerə deyil. Görünən odur ki, rəsmi Paris hansısa bəhanə ilə yenə də özünün müstəmləkəçilik siyasətini davam etdirmək qərarına gəlib. Beşinci Respublikanın artıq Qabon, Seneqal, Kot-d'İvuar, Çad və Cibutidəki bölmələrinin komandanlığın nəzarətinə verilməsi planlaşdırılır. Bir sözlə, müstəmləkə sistemini qoruyub saxlamaqda Fransanın necə israrlı olduğu artıq özünü göstərir.

## Fransa tarix boyu kolonial, müstəmləkəçilik siyasəti yürütməkdə maraqlı olub

Tarixə ekskursiya etdikdə görürük ki, Fransa hər zaman kolonial, müstəmləkəçilik siyasəti yürütməkdə maraqlı olub və buna nail olub da. Məlumat üçün qeyd edək ki, 20-ci əsrin birinci yarısında ingilislərdən sonra dünyada ikinci böyük müstəmləkə imperiyası sayılıb. İkinci Dünya Müharibəsinin əvvəlində, metropolis də daxil olmaqla, onun sahəsi 13,5 milyon kvadrat kilometr olub. Müqaisə üçün nəzərə çatdıraq ki, bu, yer kürəsinin 9%-ni təşkil edib. Eyni zamanda onu da xatırladaq ki, koloniyaların əksəriyyəti Qərbi və Mərkəzi Afrikada yerləşib, burada fransızlar qitənin təxminən 40%-nə sahib idilər.

Bildiyimiz kimi, ikinci Dünya Müharibəsi zamanı Fransa Almaniyaya məğlub olub və bir neçə il Hitlerin nəzarəti altında qalıb. Sözsüz ki, həmin dövrdə fransız müstəmləkələri öz başlarına buraxılıb. Onların bəziləri müstəqillik elan edərək, bundan tez istifadə ediblər. Nəticədə, 1957-ci ilə qədər metropolis də daxil olmaqla, Fransanın "mülkləri" 10,59 milyon kvadrat kilometrə qədər azalıb. Qalan müstəmləkələrdə isə müstəqillik hərəkatı genişlənib. Bildiyimiz kimi, sonra da Fransa hökuməti dırnaqarası "müstəmləkə siyasəti üzrə mütəxəssis" olan Jak Fokartın "xidmətlərinə" müraciət edib. Yada salaq ki, bu iş adamı Afrika koloniyaları ilə ixrac-idxal əməliyyatlarında ixtisaslaşmış hesab olunub. İkinci Dünya Müharibəsi illərində o, nasistlərlə sıx əməkdaşlıq edib, onları kömür və taxta ilə təmin edib. Lakin 1943-cü ildə dələduzluq edərkən yaxalanıb və qısa müddət həbsxanada saxlanılıb. Bunun sayəsində müharibədən sonra özünü "nasizmin qurbanı" kimi göstərə bilib və bu statusla da siyasətə qədəm qoyub. Beləliklə də Şarl de Qollun ən etibarlı adamları dairəsinə daxil olan Fokart, general hakimiyyətə gəldikdən sonra xüsusi xidmət orqanlarının kuratoru olub. Sonra da "Franzafrica"layihəsini təklif edib. Fokartın fikrincə, müstəmləkələrin resursları olmadan Fransa dünyanın aparıcı iqtisadiyyatı statusunu və bununla da siyasi çəkisini itirər. Vurğulamaq yerinə düşərdi ki, həmin "iş adamı" afrikalıları Parisin ən qiymətli sərvəti hesab edirdi. Fokarta görə afrikalılar nəinki nəhəng faydalı qazıntı ehtiyatlarına sahib idilər, onlar həm də əlverişli coğrafi mövqeyə malik sayılırdılar. O, nəzərə alırdı ki, afrikalılar metropolisə yaxın idilər. Bundan əlavə, Fokart inanırdı ki, "geri qalma" səbəbindən yerli əhali asanlıqla manipulyasiya edilə bilər. Buna görə də Afrika müstəmləkələrinə de-fakto protektorat tətbiq edərək, formal "müstəqillik" verilməsi təklif edildi və hətta İngiltərənin dominionlarla münasibətlərini nümunə götürmək də onun tərəfindən tövsiyə olundu.

## Beşinci Respublika afrikalılara qarşı hər zaman bütün mümkün pisliklərə əl atıb, soyqırımlar edib və qalanlarını da "soyub"

Heç şübhəsiz ki, Fransa tərəfindən əsl soyqırım törədildiyindən də xəbərsiz olan tapılmaz. Bəli, sözün əsl mənasında fransızlar tərəfindən soyqırım törədildi. Məsələn, bunun, fransızların törətdikləri soyqırımın bariz nümunəsindən biri də Əlcəzairdir. Beləki, 1954-1962-ci illərdə bu ölkəyə qarşı müharibəyə başlanıldı və bu müharibə zamanı fransızlar 11 milyon əhalinin 1,5 milyonunu öldürdülər. Qansızcasına soyqırım törətdilər. Digərlərinə qarşı da sanksiyalar tətbiq edildi. Nümunə üçün Qvineyanı göstərə bilərik. Prezident de Qoll bütün texniki mütəxəssislərin geri çağırılmasını, arxivlər, məktəblər, uşaq bağçaları, xəstəxanalar üçün avadanlıqlar, dərman ləvazimatları və hətta mal-qara daxil olmaqla bütün "qiymətli materialların" yığışdırılması əmr etmiş şəraiti tamamilə dəyişdi. Bütün iqtisadi əlaqələr bağlanıldı. Bir başqaları üçün isə çevrilişlərdən istifadə edildi. Belə ki, Afrikanın xalq tərəfindən seçilmiş ilk prezidenti, daha dəqiq desək, Toqonun rəhbəri Silvan Olimpio Fransa Xarici Legiononun keçmiş əsgərləri tərəfindən öldürüldü. Bunun üçün onlar Fransa səfirliyindən 612 ABŞ dolları məbləğində mükafat da aldılar.

Xatırladaq ki, sadalananlarla kifayətlənməyən fransızlar nəhayət, ən çətin bir addıma da əl atdılar. Beləki, 1959-cu ilin noyabrında Şarl de Qoll Fransanın nüvə texnologiyasına malik olduğunu, eləcə də ondan dünyanın istənilən yerində istifadə etməyə hazır olduğunu elan etdi. Təhdidin heç də sıradan bir söz olmadığını göstərmək üçün general əyani nümayiş keçirməyi də qərarlaşdırdı və 1960-cı ilin fevralında Fransa ilk nüvə partlayışını həyata keçirdi. Əlcəzairdə, bir çox qəbilələrin məskunlaşdığı ərazidə həmin partlayış həyata keçirildi. Bir növ sınaq yeri kimi həmin ərazilər istifadə dildi. Növbəti "sınaqlar" başqa bir koloniyada, daha dəqiq desək, Fransız Polineziyasında baş verdi. Bu arqument də "azad assosiasiya"nın çökdürülməsində həlledici oldu. Buraya qızıl ehtiyatlarına görə dünyada 3-cü, uran üzrə 6-cı, neft və qaza görə 10-cu yeri tutan Qərbi və Mərkəzi Afrika ölkələri daxil idi. Onu da diqqətə çatdırmaq yerinə düşərdi ki, Fransa təkcə afrikalılara verilən kreditlərin faizlərindən hər il 0,5 trilyon dollar "qazanırdı". Qazanırdı deyəndə, əslində, fransızlar sadəcə olaraq, afrikalıları soyurdular. Ümumiyyətlə, sadalananlar təsdiq edir ki, Beşinci Respublika afrikalılara qarşı hər zaman bütün mümkün pisliklərə əl atıb, soyqırımlar edib və qalanlarını da "soyub".

## Beynəlxalq ictimaiyyət Fransanın yaratmaqda olduğu təhlükəni qətiyyən cavabsız qoymamalıdır

Görünən odur ki, yenə də Fransa özünün köhnə ənənələrinə sahib çıxmaq niyyətindədir və fransızlar yenidən Şarl de Qoll metoduna, daha dəqiq desək, nüvə şantajına əl atmaqdadırlar. Kamerun, Mərkəzi Afrika Respublikası, Mali, Burkina Faso, Nigeriya və bir sıra digər ölkələrin Parislə quldarlıq müqavilələrini ləğv etmələri görünür fransızları, ələlxüsus makron hakimiyyətini qətiyyən qane etmir. Axı, deyildiyi kimi, "sərvət" hesab etdiklərindən məhrum olmaq heç də qane edə bilməz. Çünki özləri də etiraf edilər ki, bu "məhrumiyyət" onlar üçün böyük "itgi" deməkdir.

Nümayişkəranə şəkildə göstərilir ki, guya Afrika Komandanlığının formalaşdırılması çərçivəsində Afrikadakı ordu kontingentinin 3,8 min nəfərdən 2,1 min nəfərə qədər azaldılması planlaşdırılır. Bununla belə, onların funksiyalarının özəl hərbi şirkətlərə verilməsi nəzərdə tutulur və bu da o deməkdir ki, onların sayı, əksinə, artırılacaq. Bundan əlavə, Afrika Komandanlığının fəaliyyət proqramına Parisin istənilən ölkəyə qarşı nüvə silahından istifadə etmək hüququna malik olduğunu bildirən bəndin də yer alacağı gözlənilir. Məsələ burasındadır ki, bu vəziyyət Fransanın Nüvə Silahlarının Yayılmaması Müqaviləsindən irəli gələn öhdəliklərinə tamamilə ziddir. Parisin 1992-ci ildə qoşulduğu bu müqaviləyə görə, nüvə dövlətinin nüvə silahı olmayan dövlətlərə qarşı atom silahından istifadə etmək hüququ qətiyyən yoxdur. BMT Nizamnaməsindən irəli gələn tələblərə görə, bəşəriyyətin təhlükəsizliyinə cavabdehlik olmalıdır. Amma belə bir cavabdehliyi daşımalı olan bir ölkə, daha dəqiq desək, Fransa dünya ictimaiyyəti üçün yenə də təhlükə yaratmağa başlayır. Hər halda, bütün dünya, beynəlxalq ictimaiyyət bu təhlükəni, Fransanın yaratmaqda olduğu təhlükəni qətiyyən cavabsız qoymamalıdır.

***İnam Hacıyev***

# "Öncə İnsan Ol"



***Naxçıvan əsrarəngiz bir yerdir. Bir tərəfindən əsrlərdir axan Arazla uzanıb gedən qamışlı qıyısı, qıjıltılı ayrılıq mahnısı, insanlara xitab edən sərhəd dərdi və bir tərəfindən dağlar ilə əhatələnmiş, sanki qoruyucu divarları ilə məğrur dayanmışdır. Saf, təmiz, duz qoxuyan havası, insana qəribə duyğular bəxş edən siqləti ilə seçilən kosmik bir məkandır. Bəlkə də, Nuh peyğəmbərin qeybdən gələn nəzarəti, gəlib keçmiş ərənlərin nəfəsi, Əshabi-Kəhfin hər gün məkana yaydığı müqəddəs bir ahəng bu əlahiddə torpağı qoruyur, qüvvətləndirir. Bu dünyanın sirlərini açmağa, dərin qatlarını öyrənməyə çalışanlar həmişə bir nöqtədə birləşirlər: elm, təlim və təhsil, fikir mədəniyyəti, dünyanın ilk məktəb sistemi və bu işıqlı yola açılan qapılar***

Pedaqogika üzrə Elmlər doktoru, Prof. Rüfət Hüseynzadənin "Azərbaycan məktəb və pedaqoji fikir tarixı" kitabından öyrəndiyimiz kimi bəşər tarixində ilk qanuni məktəbşünaslığın təməli Naxçıvan ərazisində qoyulmuşdur. Bunu Gəmiqaya yazıları, müxtəlif etnoqrafik nümunələr də sübut edir. Zaman- zaman genişlənən bu təlim-təhsil mərkəzləri bu diyarda inşa edilmiş abidələrdə də özünü göstərir. Yəqin buna görədir ki, buranın insanı hər zaman qüdsiyyətə, təcəlliyə can atmış, elmin qapılarına sığınmış, öyrənməyi və öyrətməyi məqsəd qoymaqla insanlığın kamilləşməsi yolunda məsafələr qət etmişlər. Qədim əsrlərdən başlayaraq, orta əsrlərdə də, sonrakı dövrdə də elm və düşüncə tarixinə şərəfli səhifələr yazmışlar.

Elm və mədəniyyət mərkəzi, təsəvvüf fəlsəfəsinin mühüm ocaqlarından olan Naxçıvan şəhərindəki nəsillərlə tanış olduqca, bir çox tarixi abidələrin həyat həqiqətlərini öyrəndikcə, yazılmış müxtəlif mənbələrə müraciət etdikcə, daha dərin suallar qarşısında qalır, müəyyən şəxslərə üz tutmaq istəyirsən.

Naxçıvanın mərkəzində ucalan Mömünə Xatun məqbərəsi dövlətçilikdən xəbər verərək, tarix danışır. Həmin ərazidən bir az yuxarıda şəhərin mərkəzinə doğru olan yolda bir abidə ucalır. Bura Naxçıvanın təsəvvüf düşüncə tərzinin yayılması və inkişafında, Türk-İslam təsəvvüf fəlsəfəsinin bir qolu olaraq fəaliyyət göstərmiş Bektaşı Zaviyəsidir. Əsrlərlə sufilərin toplaşdığı təlim və təhsil, mədəniyyət və mənəviyyat ocağıdır. Bu abidənin taleyindən qara qüvvələr keçsə də, sanki göylərdən diktə olunan bir qüdsiyyət bu binanın məramını qorumuş, kirlənməyə, yox etməyə qoymamışdır. Öyrəndiyimiz məlumatlara əsasən, bura uzun illər mədəni-maarif sahəsində istifadə edilmiş, sonralar "Məktəblilər evi" kimi fəaliyyət göstərmiş, bir arada "Cavid Poeziya teatrı" olmuş, sonralar müxtəlif təşkilatlara verilimişdir. Biz onun üzərində "Xatirə lövhəsi" görə bilmədikdə, həmin nəslin nümayəndələrinə üz tutmaq qərarına gəldik. Müsahibim Etimad xanım Bektaşı oldu.

*- Etimad xanım, bizlər təsəvvüf fəlsəfəsi ilə, onların böyük nümayəndələri haqqında bilgilər aldıqca belə bir nəticəyə gəlirik ki, bu, üstün bir idrak səviyyəsidir. Bəşərilik, ərdəmli və gözəl ruhlu insan olma çabaları, "Yaradılanı sev, yaradandan ötrü", sülh və əmin-amanlığa çağırış bu fəlsəfənin əsas xətti kimi görünür. Bu isə, oxumaq, cahilliklən çıxmaq, elmli insan olmaqla mükəmməl əxlaqa yiyələnmək məqsədi daşıyır. Biz müasir dövrümüzdə Tofiq Bektaşı, Məmməd Bektaşı, İnayət Bektaşı, Sübhi Bektaşı, Rauf Bektaşı və bir çox Bektaşıların və o cümlədən, onların övladlarının elmini və əxlaq tərzini eşitmişik. Sizlər isə birbaşa onların ailə nümayəndəsi olaraq, o ruhun, o tövsiyələrin içində böyümüsünüz. Həm təsəvvüf düsüncəsi ilə tanışlığınızı, canlı sahid kimi gördüyünüzü və eşitdiyinizi nəzərə alaraq nələr deyə bilərsiz?*

- Türk-İslam düçünşə tarixində Bektaşılik fəlsəfəsinin xüsusi yeri vardır. Hacı Bektaş Vəli ilə başlayan bu qol elə bir yoldur ki, öz mənəviyyat məktəblərini yaradaraq, əxlaqi dəyərləri önə çıxarmış, könül duygularının ağılla birləşməsi, Türk kimliyi ilə İslam həqiqətlərinin qovuşması prinsiplərini ortaya qoymuşdur.

Anadoludan Balkanlara qədər yayılan Bektaşilik "Öncə İnsan Ol" devizini rəhbər tutduqu üçün sürətlə yayılmış, bütün zümrələri, kimliyindən asılı olmayaraq qucaqlamışdır. Çətin dövrlərdə acizlərin, qəriblərin sığınma yeri olmaqla bərabər, elm, təhsil və təlim yolunda, xalq kütlələrinin yaratdığı şer və sənətin inkişafı yolunda mühüm işlər görmüş, alim və şairlər yetişdirmişlər. Onlar eyni zamanda döyüş təlimlərində də şücaətlər göstərmişlər. Bektaşılər iki qola ayrılır.

Babaqanlar və Dədəqanlar. "Baba" onlarda yüksək tituldur. Onlar bu fəlsəfəni qəbul edərək o yola baş qoyan insanlardır, bütün təbəqələri əhatə edir. Dədəqanlar isə nəsil davamçılarıdır. Naxçıvan Bektaşıləri soy Bektaşıləridirlər. Azərbaycan ərazisindəki bütün Bektaşılər bir ailənin qol budaqlarıdır. Dediyiniz Naxçıvan şəhərindəki həmin Zaviyə (Dərgah) isə Bektaşilik fəlsəfəsinin təməl sütunu, Azərbaycanda ən yaxsi sufi ocaqlarından biri olub. Orta əsrlərdən XX əsrin əvvəlvarinə kimi Türk-İslam təsəvvüf cərəyanının möhkəm dayağı kimi fəaliyyət göstərib.

Zaviyə "Bektaşilərin məhəlləsi" deyilən küçədən əsas küçəyə, yəni, o vaxt "Örtülü bazar" deyilən (oranı sonralar Şura hökuməti doldurub, Yeraltı bazar idi) yerə çıxırdı. Belə ki, bu abidə bir növ Bektaşı evlərinin yekunu idi. Bektaşi ailələri kompakt yaşayırdılar. Evlərinin küçəyə çıxışı olsa da daxildə bir biri ilə əlqəli idi. Yəni, eşiyə çıxmadan bir birinin evinə gedib gələ bilirdilər. Qəribə bir memarlıq nümunəsi idi. Zaviyə isə göründüyü kimi açıqlıqda, gediş- gəliş yolunun üstundə yerləşirdi. Mən bu binaya illərlə girib-çıxmışam. Bağlı həyəti, yardımçı evləri təsərüfat, yeməklərinin hazırlanması,qonaqların ibadəti, yerləşdirilməsivə s. məqsədləri daşıyırmış. Əsas Zaviyənin isə bağlı avlusu, ayrı- ayrı güşə otaqları var idi. Yuxarıya avludan qalxılırdı. Çox sonralar başa düşdüm ki, bu hücrə-bucaqlarda ("künc" "güşə") dərslər verilir, təlim keçirilirdi. Geniş salon toplantı üçün istifadə olunurdu. Yuxarıdan zaviyədarlar, şeyxlər, alimlər, qonaqlar istifadə edirmişlər.

Zaviyə bir növ tədris-tərbiyə mərkəzi idi. Həm Bektaşilərin, həm də gəlib -gedənlərin ibadət, söhbət yeri olmuşdur. Bura toplaşanlar o dövrün böyük alimlərindən dərs almış, hətta buraya "Mədrəsə" (ali məktəb) belə deyilmişdir

Müxtəlif mənbələrdən və ailə söhbətlərindən də bilirəm ki, Türk dünyasının hər yerindən, hətta Avropa və Rusiyadan belə bura təşrif buyurur, təsəvvüf fəlsəfəsinin, Türk-İslam mədəniyyətinin mahiyyətindən faydalanır, məlumat toplayırdılar. Din xadimləri, tacirlər, alimlər, səyyahlar burada ağırlanır, hər gün qonaq üçün yeməklərlə doydurulur, müxtəlif tarixi və dini yerlərə aparırdılar. Nənəm deyərdi ki, baban hamıya "gülqənd" payı qoyardı.

Babam Mirzə Cabbar Bektaşı bu Zaviyədə XIX əsrin sonları, XX əsrin əvvəlləvində "baba" (titul) adi ilə oturub.

Digər Bektaşılər də çox mühüm sahələrdə fəaliyyət göstərmişlər. Onlara Zaviyədarlar, ya da Şeyx deyilirmiş. Amma hamısı Mirzə adı ilə tarixə düşüb. Bu da onların hamısının yüksək təhsil almalarından xəbər verir. Mənim Babam isı Mirzə Cabbar Nəcəfül-Əşrəfdə "Fiqh" (Şəriət hüququ) təhsili alıb.

Bu ocaq çətin dönəmlərdə həm də sığınacaq yeri olub. Heç kim bu qapıdan naümid qayıtmayıb. Çünki Bektaşılikdə yüksək əxlaqa, kamilliyə, elmə mənəviyyata malik olan insanların yolu və rolu məhz budur! Əsas devizi "Əlini, dilini, belini qoru" olaraq milli kimliyin gələcək nəsillərə ötürülməsində olann məsuliyyətdən xəbər verir.

*- Zaviyə haqqında, onun fəaliyyət dönəmlərindən, ata-babalarınızdan nələr eşitmisiniz, nələrin şahidi olmusuz? Zaviyə haqqında nə düşünürsünüz. Siz həm də "Məktəblilər evi" kimi fəaliyyət göstərildiyi dönəmlərdə orada işləmisiz. O barədə nələr danışa bilərsiniz?*

- Son Zaviyə dönəmləri Heydər bəyin, Mirzə Əli bəyin, Bağır bəy, Əşrəf bəyin və Babam Mirzə Cabbar ağanın adı ilə sıx bağlıdır. Çünki mən usaq olanda onların övladları sağ idi və çox şeylər danışırdılar. Qaçqınlar üçün fədakarlıq, yetimxana açmaq, son qızıl və pullarını xərcləmək kimi söhbətləri çox eşitmişəmş. Oxumaq istəyənlərə şərait yaradılması, şəhər ziyalıları ilə müxtəlif tədbirlərin təşkili və s. Axır zamanlarda orada Əliqulu Qəmküsarın başçılığı ilə şeir gecələri keçirilirmiş. Hətta Hüseyn Cavid orada iştirak edirmiş. Yeni yazarlara məsləhətlər verilirmiş. Cənubi Azərbaycanda Səttarxan hərəkatına buradan müxtəlif yardımlar edilirmiş. Represiyalar, surgünlər, həbslər bu hərəkata da son qoyur, hər şey əllərindən alınır.

Sonrakı dövrlərdə şəhərin əksər usaqları orada müxtəlif dərnək və tədbirlərdə yetişiblər. Biz Bektaşı uşaqları taleyin rüzgarı kimi elə oradan, o ocaqdan pərvazlanmışıq. Sonralar "Cavid Poeziya teatrı"nın tamaşalarına gedərdim. Bunlar son gedişim oldu. Daha o binaya uzaqdan baxdıq. Sanki ruhunu tərk etmişdi. Halbukı, ora bir ziyarət yeri olmalı idi.

Zaviyə mənim içimdə sızlayan bir bulaq kimidir. Onun haqqı verilməyib. Bütün Türkiyədə, Balkanlarda Bektaşilik mükəmməl halda öyrənilir. O ocaqlar, dərgahlar rövnəqləndirilir, fəxr edilir, qorunur, şöhrətləndirilib muzey kimi hamının üzunə açılır, dünya üçün bir insanlıq mənbəyi , elm-təhsil ocağı, kamilliyə gedən haqq yolu kimi dəyərləndirilir, türk-islam fəlsəfəsininin ən mütərəqqi qolu kimi təbliğ edilir.

Naxçıvan tarixinə şərəf vermis bu zaviyənin içində nə dəyişiklik olub onu bilmirəm, amma kənardan mənə tənha, yad bir rənglə boyanmış, qol - qanadı kəsilmiş, yetim qalmış bir küskün təsiri bağışlayır. Hər dəfə oradan keçəndə ondan üzr istəyirəm. Bilgin ərənlərin ruhu oradadır. O ruhlar tək bizim yox, Türk- İslam dünyasının ayaqda qalmasına, inkişaf etməsinə, bu günkü günə çatmasında mühüm rol oynamışlar. Məhrumiyyətlər, qadağalar, istibdadlar, represiyalar içində yaşamış amma haqq yoluna baş qoymaqdan vaz keçməmişlər.

*- Son olaraq nə demək istəyirsiniz?*

- Bilirsiniz, Türkiyənin hər yerində bu cür məkanlar müqəddəs bir Sufi abidəsi kimi qurur mənbəyi olaraq qorunur. Gələcəyə ötürülür, gəlib- gedən hər kəsə bu möhtəşəm, tarix və mənəviyyat qoxuyan abidələr haqqında məlumatlar verilir, oradakı auranı bir yolla insana ötürürlər. Belə yerlərdə olmuşam, oradan elə sehr içində çıxırsan ki, sanki ruhən təmizlənirsən. Burada isə hər şey bir yana, bir xatirə lövhəsi belə yoxdur ki, gələnlərə Türk -İslam təsəvvüfünun bir zamanlar Naxçıvan diyarında fəaliyyət dairəsinin olub -olmamasını göstərə biləsən.

Hörmətli Etimad xanım, sizin bu haqda bilgi və xatirələriniz çoxdur. Fikrət Bektaşi ilə birlikdə yazdığınız son kitabınızdan da (Keçmişdən günümüzə Naxçıvan Bektaşıləri; 2017) bilindiyi kimi bu barədə olan məlumatlarınızın ardının gələcəyinə inanırıq. Sizə təşəkkür edir və sizinlə daha geniş yazılarda görüşmək ümidi ilə ayrılırıq. Qeyd etməliyəm ki bu yol, bu dərgah, bu dünyəvi təsəvvüf qolu, kamil insan olmaq yolunun Naxçıvan qoludur və nəinki uzərində xatirə lövhəsi olması, hətta bu abidənin Naxçıvanın şanlı tarixindəki yerinin xüsusi vurğulanmasının vacibliyinə inanırıq.

***İnci Qadir qızı Qədirzadə***

# Azərbaycan cüdoçusu Olimpiya çempionu oldu!




Avqustun 1-də Azərbaycan cüdoçusu Zelim Kotsoyev "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarında qızıl medal qazanıb. 100 kiloqram çəki dərəcəsində mübarizə aparan Avropa və dünya çempionumuz qızıl medal uğrunda qarşılaşmada gürcüstanlı İlya Sulamanidze ilə üz-üzə gəlib. Rəqibinə ipponla qalib gələn idmançımız Olimpiya çempionu olub.

Xatırladaq ki, bu, Azərbaycan komandasının Paris Olimpiadasında qazandığı ikinci qızıl medaldır. Daha əvvəl cüdoçu Hidayət Heydərov (73 kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq Parisdə Azərbaycan Himnini səsləndirib.

# Haniyə, Yaxın Şərq və böyük müharibə





Yaxın Şərq genişmiqyaslı müharibəyə doğru daha bir addım atdı. Səbəb HƏMAS Siyasi Bürosunun lideri İsmayıl Haniyənin yeni prezidentin andiçmə mərasimi münasibətilə İrana səfəri zamanı vəzifəsindən uzaqlaşdırılması olub. İsrail hücuma icazə verməkdən imtina etsə də, Tehran və ona sadiq qüvvələr yəhudi dövləti ilə döyüşü "yeni səviyyəyə" qaldıracağına söz verərək, zərbəni regional düşmənin üzərinə atıb. Qətərdəki diplomatik mənbə bildirib ki, Haniyənin ölümü faktiki olaraq İsrail və HƏMAS arasında razılaşma şansını məhv edib.Kreml İran ərazisinə sui-qəsd cəhdindən sonra geniş regional eskalasiya perspektivini açıqlayıb. "Biz cənab Haniyənin ölümünə səbəb olan bu hücumu qətiyyətlə pisləyirik", - Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. "Biz inanırıq ki, bu cür hərəkətlər regionda sülhün bərqərar edilməsi cəhdlərinə qarşı yönəlib və üstəlik, onsuz da gərgin olan vəziyyəti əhəmiyyətli dərəcədə destabilləşdirə bilər".Haniyə raket hücumu nəticəsində həlak olub. Bu zaman o, İrandakı iqamətgahında olub, İslam Respublikasının yeni prezidenti Məsud Pezeşkiyanın andiçmə mərasimində iştirak etdikdən sonra dincəlirdi. Şayiələrə görə, Fələstin İslami Cihadının liderlərindən biri HƏMAS Siyasi Bürosunun rəhbəri ilə eyni binada olub, lakin o, xəsarət almayıb. İran torpaqlarında səs-küylü qətl hadisəsi İsrailin Livanda təsdiq etdiyi hücumun Hizbullahın hərbi-strateji rəhbəri Fuad Şükrün həyatına son qoymasından 24 saatdan az bir müddət sonra baş verib.Haniyyənin aradan götürülməsi bir sıra son sui-qəsd cəhdlərində fərqlənir. Qətərdəki diplomatik mənbənin verdiyi məlumata görə, qətlə yetirilən şəxs HƏMAS üçün "xarici siyasət nümayişi" idi və baş nazir Benyamin Netanyahu hökuməti ilə Həmas silahlı qanadı arasında aparılan danışıqlarda vasitəçi sayılırdı.



Onun sözlərinə görə, Haniyənin ölümü 2023-cü il oktyabrın 7-də yaraqlılar tərəfindən əsir götürülən israilli girovların azad edilməsi ilə bağlı sazişin bağlanması şansını məhv edir. İsrailin əlinin olması versiyasını şərh edərkən, "Bu, şübhəsiz ki, gərginləşdirici bir addımdır" deyib.Mümkündür ki, danışıqlar prosesinin pozulması ictimaiyyətin Qəzza ilə kompromis şərtlərlə sülh sazişi bağlayacağını gözlədiyi Netanyahu üçün suallar yaradacaq. Qəzzaya təzyiqin azaldılması hökumətə qüvvələri Hizbullahla münaqişənin artdığı Livan-İsrail sərhədinə doğru bölüşdürmək imkanı verə bilər.HƏMAS-ın siyasi bürosu son vaxtlar çaşqınlıq içərisindədir. Uzun müddətdir onun ofisinə ev sahibliyi edən Qətər İsraillə danışıqlarda güzəştə getmək üçün hərəkat liderlərinə təzyiq göstərməyə başlayıb. Nəticədə qrupun siyasi qanadının üzvləri başqa təhlükəsiz liman axtarmağa başlayıblar. Bir sıra müşahidələrə görə, Haniyə və onun tərəfdaşları İraq hakimiyyəti ilə daimi sığınacaq üçün danışıqlar aparmağa çalışsalar da, İraqın İrana sadiq şiə birləşmələrinin bir hissəsi bu təşəbbüsü çox həvəssiz qəbul ediblər.İndi Netanyahu hökuməti Haniyənin öldürülərək vəzifədən uzaqlaşdırılmasına görə məsuliyyəti öz üzərinə götürməkdən imtina edir. Baxmayaraq ki, İsrailin baş naziri keçən ilin noyabr ayında kəşfiyyat agentliyi MOSSAD-a HƏMAS-ın yüksək rütbəli komandirlərini "harada olur-olsunlar" hədəfə almaq tapşırığı olduğunu açıqlamışdı.İsrailin müdafiə naziri Yoav Qalant ölkəsinin "müharibə istəmədiyini" ancaq "hər hansı mümkün inkişafa hazırlaşdığını" deyib. "Bütün səviyyələrdə iş görmək lazımdır", - deyə nazir hərbi qulluqçulara baş çəkərkən qeyd edib.

Birləşmiş Ştatlar artıq Yaxın Şərqdəki müttəfiqini müdafiə etmək öhdəliyini üzərinə götürüb. Pentaqonun rəhbəri Lloyd Ostin "İsrail hücuma məruz qalsa, biz İsraili müdafiə etməyə mütləq kömək edəcəyik" deyib.İndi Yaxın Şərq İran-İsrail münaqişəsinin genişlənməsini gözləyir. İranın ən nüfuzlu hərbi-siyasi təşkilatı olan İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) suverenliyin pozulmasına görə böyük cavab əməliyyatı keçirəcəyinə söz verib. İslam İnqilabı Keşikçiləri Korpusunun bəyanatında deyilir: "Şübhəsiz ki, sionist rejimin bu cinayəti güclü və geniş müqavimət cəbhəsinin şiddətli və ağrılı cavabı ilə qarşılaşacaq".Tehran xüsusilə ABŞ prezident administrasiyasını günahlandırıb. Haniyəyə qarşı sui-qəsd cəhdindən bir qədər əvvəl "müqavimət oxu" qüvvələri qısa bir taktiki fasilədən sonra bölgədəki Amerika bazalarına hücumları bərpa etməyə razılaşdıqları üçün Pentaqonun Suriya və İraqdakı hərbi obyektləri artıq yüksək hazırlıq vəziyyətinə gətirilmişdi. Yəmən husiləri də regionda Qərbin maraqlarına yeni meydan oxuyacaqlarına söz veriblər.Qəzzanın fəth olunmamış bölgələrini zorakılığın alovlanması gözləyə bilər. HƏMAS-ın silahlı qanadı İzzəddin əl-Qəssam Briqadaları bildirib ki, Haniyənin Tehranda öldürülməsi İsraillə qarşıdurmanı "yeni səviyyəyə" çıxaran və "ciddi nəticələrə" səbəb olan bölgədə "kritik hadisə"dir. Həmas Siyasi Bürosu eyni zamanda bəyan edib ki, İsrail qüvvələrinə silahlı müqavimətin gücləndirilməsi "Fələstin xalqının tam azad olmaq istəklərinə nail olmaq üçün yeganə seçimdir".Vəziyyətə İranın prizmasından baxsanız, HƏMAS Siyasi Bürosunun rəhbərinin iqamətgahına hücumun haradan edildiyi ilə bağlı hələ də kifayət qədər suallar var. Əgər bu, bəzi ərəb nəşrlərinin iddia etdiyi kimi üçüncü ölkədirsə, o zaman İslam Respublikasının raketdən müdafiə sistemi niyə işləməyib? Əgər buraxılış meydançası İranın özü idisə, o zaman niyə qəbul edən tərəf Haniyə potensial təxribat qruplarından gələn təhlükəni tamamilə aradan qaldıracaq təhlükəsizlik tədbirləri ilə təmin etmədi?Ekspertlər isə Haniyyənin qətlinin İsraildən başqa biri tərəfindən həyata keçirilə biləcəyinə şübhə yoxdur, deyə şərh ediblər.

Ancaq Haniyanın aradan götürülməsində bəzi qüvvələrin maraqlı ola biləcəyindən danışsaq, aşağıdakı amillərə diqqət yetirmək lazımdır. Son illər o, kifayət qədər praqmatik siyasətçi imicini qazanıb. Siyasət HƏMAS standartlarına görə kifayət qədər mülayimdir. Eyni zamanda nəzərə almaq lazımdır ki, Haniyə 2017-ci ildə Qəzza zolağından ayrılıb və Fələstin ərazisindən uzaqda vaxt keçirib, əsasən Qətərdə olub və Yaxın Şərq paytaxtlarını gəzib.Qəzza zolağında liderin yerini özünü sərt tərəfdar kimi təsdiqləyən Yəhya Sinvar tutub. Sinvarın azad edilməsi ilə nəticələnən məhbus mübadiləsindən sonra onu Qəzzaya dəvət edənin məhz Haniyə olmasına baxmayaraq, iki lider arasında partiyalararası rəqabətin olduğunu güman etmək olar. Hər halda bir çox ekspertlər mühüm qərarların verilməsində son sözün məhz Sinvar olduğuna çoxdan diqqət çəkiblər. Qeyd etmək olar ki, Haniyə İsraillə atəşkəs razılaşmasına nail olmaq üçün HƏMAS diplomatiyasının siması idi. Ekspertlər deyirlər ki, bu yaxınlarda proses dalana dirənəndə dialoqu kəsmək qərarına gələn Sinvar idi və bu, "kimin patron olduğunu göstərən məqam" rolunu oynayır.Bəzi HƏMAS xadimləri Haniyəni həddindən artıq mötədil xarakter və bəlkə də həddən artıq güzəştlərə meyilli bir insan kimi qəbul edirlər. Bununla belə, bu mülahizələr rəqiblərdən hər hansı birinin Haniyanın fiziki olaraq aradan qaldırılmasında maraqlı ola biləcəyini düşünməyə əsas vermir.

**V.VƏLİYEV**



# Ana dilinin düşmənləri

**Lalə Mehralı**

**Peşəkar jurnalistika mətbuatın yaralı yeridir. O yaranın yaranmasına səbəb isə bir çox mətbu orqanda işə cəlb olunma yollarının peşəkar olmamasıdır. Belə ki, bəzi kütləvi informasiya vasitələrində əsasən qohumluq, tanışlıq və ya oxşar səbəblərdən yuxarı post tutmaq, qeyri-peşəkar kimi peşəkarlara iş buyurmaq mümkündür.**

İşə götürülərkən peşəkarlığın yox, başqa kriteriyaların əsas götürülməsi isə təbii olaraq işimizə maneə törədərək ümumi media bazarına zərər vurur. Media orqanları peşəkar kollektiv yaratmaq yerinə təcrübəsiz gənclərlə işləməyi daha məqbul hesab edir, o gənclərin əksəriyyəti də ana dilində bilmir. Hansı yollarla efirə ayaq açdığı bilinməyən televiziya aparıcılarının nitqi, tələffüzü efirdən çox tamaşaçını uzaqlaşdırıb.

Bu günlərdə bir televiziyadan jurnalist "votsap"a yazdı, çəkiliş üçün görüşməyimizi və müsahibə verməyimi xahiş etdi. Münasib olmadığım üçün üzrxahlıq etdim, çəkilişə ehtiyac olanda ən az bir neçə saat əvvəldən bildirməsini xahiş etdim. Cavab olaraq mənə belə bir şey yazdı: "ok, tmm, anlık gelişti". Başa düşmədim yazdığını, həmin vaxt başım qəzetin nəşrinə yetişdirməyə çalışdığım məqaləyə qarışıq olduğu üçün üzərində çox da baş sındırmadım ki, görəsən nə demək istəyib. Sonra, işdən vaxt olanda təkrar baxdım mesaja və nə demək istədiyini o zaman anladım. Jurnalist demək istəyib ki, mənimlə müsahibə qəfildən yaranmış ehtiyac olub, yoxsa əvvəldən xəbərdar edərmiş.

Bunu yazan bir televiziya reportyoru idi, o xanım hər gün çəkilişlərdə, reportajlarda olur, müsahibələr alır, sonra montaja girir, səsləndirmə edir. Ana dilini ən mükəmməl şəkildə bilməsi də işinin bir hissəsidir, öhdəliyidir. Amma ana dili yerinə iki dilin qarışığından natamam yazılmış cümlə bunun əksini deyir.

Elə jurnalistlər, elə televiziya aparıcıları var ki, yazılarını oxuyanda, reportajlarına qulaq asanda, müsahibələrini dinləyəndə, verilişlərini izləyəndə qulaqlarım işgəncə çəkir, gözlərim "qanayır". Xüsusilə, internet jurnalistikası bərbad vəziyyətdədir, tərcümələr hesabına günü başa vuran gənc jurnalistlərin yazdığı yazıları oxuduqca yazının mahiyyəti bir tərəfdə qalır, səhvlərə konsentrasiya olursan. O qədər çox uyğunsuzluq, səhv var ki, heç cür diqqətini cəmləyib məqaləyə köklənə bilmirsən.

Efirdəki aparıcılar bərbad danışırlar. Danışa bilmirlər, desəm, daah doğru ifadə etmiş olaram. Söz bazaları, ifadə bacarıqları yoxdur, hər cümlənin əvvəlində, hər cümlənin sonunda "belə deyim də" ifadəsi işlətməyən aparıcı yoxdur. Nə efir üslubu var, nə danışıq mədəniyyəti. Aparıcıların hansı bölgədən olması elə ilk cümlələrindən bəlli olur. Efirdə müzakirə gedəndə doqqaz önündə toplaşan qonşu arvadların qovğası düşür yadıma. "Ayə", "ağız", "ədə" xitabları efirdən birbaşa evimizə soxulur.

Ən sadə bir misal. Böyükdən kiçiyə, savadlıdan savadsıza, alimdən cahilə hamının, elə ən çox jurnalistlərin dilinə düşən "aşağıladı" sözü var. "Təhqir etdi", "həqarət etdi", "alçaltdı", "hörmətsizlik etdi", "heysiyyətinə, mənliyinə toxundu" - görün dilimizdə nə qədər sinonimi var bir sözün. "Aşağıladı" nədir? Dilin evini niyə yıxırsınız?! Yazanda, danışanda niyə öz dilimizdəki sözlərdən istifadə etmirsiniz? Dili dilim-dilim edənlər, sizdən sonrakı nəsil necə birləşdirəcək o dilimləri?

# “Türk Dövlətləri Təşkilatı dünya nizamında yeni bir güc kimi meydana gəlməkdədir”



“Dünya nizamı dəyişilir. Bu baxımdan dünya siyasətini həyata keçirən beynəlxalq təşkilatlarda islahatlar aprılmalıdır. O cümlədən zaman yeni güc mərkəzlərinin formalaşmasını da labüd edir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.Deputat bildirib ki, yeni güc mərkəzləri əsasən bir-birinə yaxın dövlətlərin birləşməsi, vahid mövqedən çıxış etməsi ilə yeni dünya nizamında özünəməxsus yerini tutur: ”Belə ki, Türk Dövlətləri Təşkilatı yeni dünya nizamında özünə məxsus yeri və gücünə malik yeni bir güc kimi meydana gəlməkdədir. TDT-yə üzv olmaq istəyən ölkələrin sayı artmaqdadır”.Onun sözlərinə görə, TDT siyasi, iqtisadi və hərbi sahədə əməkdaşlığını genişləndirir: ”Dövlətlərimiz arasında imzalanmış birgə sənədlər TDT-nin gələcəyinə yeni perspektivlər verir. Bu, Böyük Turan kimi yenidən formalaşmaqdadır. Dünyanın ayrı-ayrı regionlarında yerləşən ölkələrə diqqət yetirsək, görərik ki, həmin regionlarda iqtisadiyyatlar, əhalinin sayı azalmaqdadır. Amma TDT-də birləşən dövlətlərdə isə iqtisadi, hərbi və demokrafik artım baş verir. Bu, yeni bir gücün meydana gəlməsidir. Ona görə də regionda yerləşən güclü dövlətlər də TDT-yə üzv olmaq istəyir. Təbii ki, TDT-nin güclənməsi beynəlxalq gücləri narahat etməyə bilməz. Çünki, bir dövlət tək olanda ona təzyiq etmək daha rahat olur. Amma TDT kimi böyük birlikdə birləşməyimiz yumruğumuzun gücünü artırır və sözümüzün kəsəri yüksəlir. Bu baxımdan TDT-nin güclənməsinə həmin dairələr qarşıdır. Amma TDT-nin daha da güclənməsi və təşkilatlanması labüd məsələdir. Yerləşdiyimiz region, ümummilli maraqlarımız, mədəniyyətlərimiz, soy köklərinin və dilinin eyni olması bunu tələb edir. Bu baxımdan TDT-ni qəbul etmək istəməyən dairələr də bu təşkilatı yeni bir güc kimi qəbul etməyə məcburdurlar. Çünki, TDT-siz regionda hər hansı bir istəyi reallaşdırmaq mümkün olmayacaq. Bu baxımdan Turan birliyinin gələcəyinin çox parlaq olacağını hesab edirəm”.

***Söylü Ağazadə***

# ”Ölkəmizin nüfuzu digər dövlətlər içərisində inamın ünvanına çevrilib”




“Azərbaycan bu gün qlobal problemlərə toxunan, dünya ölkələrini birləşdirən, sülh və əmin-amanlığa çağıran tədbirlərin qovuşduğu önəmli məkanlardan biridir. Ölkəmizin nüfuzu, dövlətimizin tərəf tutmadan sözünün bütövlüyü digər dövlətlər içərisində inamın ünvanına çevrilib. Ölkəmiz həmçinin beynəlxalq əməkdaşlığın gücləndirilməsində zəngin təcrübəsi olan ölkə kimi də tanınır”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Ülviyyə Həmzəyeva deyib. O bildirib ki, Azərbaycan ən böyük tədbirlərdən biri olan COP29-a ev sahibliyinə hazırlaşır və bu hazırlığın nə qədər məsuliyyətlə və dəqiqliklə həyata keçirildiyini yalnız biz deyil, həmçinin digər ölkələr də müşahidə və müzakirə edirlər.

Əbəs deyil ki, BMT Azərbaycanda COP hazırlıqlarını yüksək qiymətləndirib.

COP tədbirlərinin məqsədi Paris sazişinin tələbi olaraq dünyada karbon qazının ($CO_2$) miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaqdır.

2023-cü il dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə Prezident 1,5°C-yə uyğun və iqlimə davamlı dünya qurmaq məqsədinə çatmaq üçün Paris Sazişinə uyğun olaraq Qlobal Baxış nəticələrini milli səviyyədə müəyyən edilmiş şəkildə həyata keçirməyin vacibliyini bildirmişdir.

Bu gün dünya gündəminin ən aktual məsələlərindən biri də COP29 beynəlxalq konfransının keçirilməsi və iqlim dəyişkliklərə qarşı mübarizədə nəticələrə nail olunmasıdır. BMT-nin bəyan etdiyi Davamlı inkişaf Məqsədlərinə qoşulan Azərbaycan, qeyd etdiyimiz kimi, milli səviyyədə özünün ekoloji siyasətinin konkret hədəflərini müəyyənləşdiribdir.

5 iyun tarixində Almaniyanın Bonn şəhərində keçirilən BMT-nin Beynəlxalq İqlim Konfransı çərçivəsində aidiyyəti mövzular müzakirə olunmuş və Azərbaycanın üzərinə götürdüyü böyük missiya barəsində geniş müzakirələr aparılmışdır.

Çıxışlarda COP29 zamanı ”Sülh və iqlim dəyişikliyi” mövzusunda müzakirələrin yüksək səviyyədə təşkil ediləcəyinə və bunun konkret nəticələr verəcəyi də ifadə olunmuşdu.

Qlobal iqlim dəyişikliyi bir çox sahələrdə olduğu kimi, beynəlxalq təhlükəsizlik üçün də ciddi çağırışlar yaradır. Qlobal iqlim dəyişikliyi nəticəsində qida və su təchizatında yaranan böhranların potensial münaqişələrə çevrilməsinin qarşısının alınması kimi vacib məsələ də COP gündəliyində əhəmiyyətli yer tutur. COP29-un perspektiv baxışının əsasında bir beçə məqsəd dayanır:

-COP29 perspektiv konsepsiyasının iki əsas istiqaməti: ambisiyaların artırılması və fəaliyyətə təkan verilməsi

-Fəaliyyətə təkan verilməsi, Maliyyə və İqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG)

-Paris Sazişinin 6-cı maddəsi

-İtki və Zərər

-Milli səviyyədə müəyyən edilmiş töhfələr (NDC) və Mitiqasiya

-Milli Adaptasiya Planları və Adaptasiya

-İkiillik Şəffaflıq Hesabatları və Şəffaflıq

-Əməkdaşlıq şəbəkələri və tamamlayıcı fəaliyyət

Azərbaycan artıq COP29 -za olan tədbirlərə bir nəticə olaraq həftəlik gündəliklər və tematik günlər müəyyənləşdirərək, işlərini bütün gücü ilə davam etdirir. Beləliklə, çoxsaylı üzv ölkələri birləşdirən və bir çox BMT qurumlarının və digər beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdikləri hazırlıq tədbirlərində COP29-a sədrliyinə verilən yüksək qiymət və göstərilən etimad Azərbaycanımızın gələcəkdə irəli sürülən konkret təşəbbüslərə dəstək verəcəyini, xüsusilə həssas bölgələrə beynəlxalq dəstəyin yönəldəcəyinə əminik. Dövlətimizə əmin, Azərbaycanımıza uğurlar diləyirik!”

***Səbinə***

# “Sülh Ermənistanın özünə lazımdır”

***“Ermənistan özünü çıxılmaz vəziyyətə salır. Ermənistan yeni bir reallığın yarandığının və onun ambisiyalarının artıq çirkin üsullarla həyata keçirilməsinin mümkün olmadığını görür. Azərbaycanın gücü, öz suveren hüquqlarını müasir üsullarla təsdiqləməsi Ermənistanı öz sərhədləri daxilinə çəkilməyə məcbur edir. Digər tərəfdən isə hələ də böyük Ermənistan xülyası Ermənistanın nəinki müxalifət, hakim dairələrinin də düşüncəsindən çıxmaq bilmir”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.***

Deputat bildirib ki, Fransa, Hindistanın Ermənistana silah satması, onun Azərbaycana qarşı aqressiyasını dəstəkləməsi Ermənistanda illuziya yaradır: ”Ona elə gəlir ki, ötən əsrin 90-cı illəri



başlayır və Azərbaycan torpaqlarını yenidən öz nəzarəti altına keçirə biləcək. Ancaq Ermənistan Azərbaycanın qətiyyətini hələ tam şəkildə öz üzərində görə bilməyib. Əgər Azərbaycana qarşı, suverenliyimizə yönəlmiş hər hansı addım atarsa, onun aldığı zərbə 44 günlük müharibədən qat-qat ağır vəziyyətdə olacaq. Azərbaycan Prezidenti dəfələrlə bu barədə Ermənistana xəbərdarlıq edib və qarşı tərəf bundan nəticə çıxarmalıdır. Ən optimal variant isə bu gün Azərbaycanla sülh müqaviləsi bağlamaqdır. Bu ilk növbədə Ermənistanın özünə lazımdır. Ermənistanın apardığı siyasət onu dalana diredi. Ermənistan bu gün Azərbaycanın imkanlarından yararlana bilmir, bu gün ora investisiya qoyan yoxdur. Belə vəziyyətdə isə müəyyən dövrdən sonra artıq Ermənistan öz dövlətçiliyi, gələcəyini düşünməli olacaq”.

***S. Hüseynli***

# Ana südü "smes"ə qarşı: kim qazanacaq?

***Onu "həyat iksiri", "can dərmanı", "təməl qida" adlandırırlar. Dünyada tayı-bərabəri olmayan ən ibtidai, ilkin qida - ana südü. Ana südü hər körpənin təməl qidası olmalıdır, amma təəssüf ki, hazırda çox körpə bundan məhrum edilir. Ona görə "edilir" deyirəm ki, bir çox ana özü könüllü şəkildə övladını ana südündən məhrum edir, süni uşaq qidası ilə qidalanmasına səbəb olur. Halbuki Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), bütün dünya həkimləri, hətta müqəddəs kitablarda belə körpənin iki il ana südü ilə qidalanması vacib və mütləq hesab edilir.***

Son 30 ildə ana südü ilə bağlı aparılan araşdırmalar, ana südünün əvəzsiz qida olduğunu və körpənin qidalanmasında onu heç bir kənar qidanın əvəz edə bilməyəcəyini sübüt edir. Nəticədə bütün dünyada ana südünün təbliğatı aparılır, analar məlumatlandırılır. Dünya iki cəbhəyə bölübüb - qlobal "smes" istehsalçıları və ana südünün möcüzəsini bilənlər. Əmizdirmə anaların və körpələrinin sağlamlığı üçün ən vacib amildir. Başqa heç bir qidalanma variantı ana südü ilə qidalanmanın təmin etdiyi sağlamlığı vəd etmir.

BMT-nin Uşaq Fondu (UNİCEF) və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə hər il ölkəmizdə avqust ayının 1-dən 7-dək "Ümumdünya ana südü ilə qidalandırma həftəsi" keçirilir. Bu tarix ana südü ilə qidalandırmanın












qorunması, təşviqi və dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), UNİCEF, dövlət siyasətçiləri və digər təşkilatlar tərəfindən 1990-cı ilin avqust ayında imzalanan "Inocenti Deklarasiyası"nın xatirəsinə həsr edilir.

Qeyd edək ki, doğuşdan sonrakı ilk günlərdə süd vəziləri zülal və mineral maddələrlə zəngin, tərkibində çoxlu miqdarda İgA, az miqdarda yağ və karbohidrat olan ilk südü - molozivo istehsal edir. Həkimlər bu südü körpənin ilk peyvəndi adlandırırlar və hər körpənin mütləq molozivo ilə qidalanmasını vacib sayırlar. Xəstəxanalarda isə çox zaman körpəni bundan məhrum edərək anaya ilk südün formalaşmasının 1 həftə çəkəcəyini deyirlər. Təcrübəsiz ana da inanır və südü formalaşanadək körpəsinə süni uşaq qidası verir. 1 həftə bu qidanı yeyən körpə isə əmmə refleksini itirir, tənbəlləşir və heç vaxt ana südü əmmək istəmir. Keçmiş baş pediatr Nəsib Quliyev bir müsahibəsində deyirdi: "Ananın doğuşdan sonra "südüm yoxdur" deməsi, "hamiləyəm, amma bətnimdə uşaq yoxdur" fikri qədər absurddur. Yaradan bütün qadınlara süd istehsal edə biləcək orqanizm verib". Baş pediatr illərini bu sahədə keçirən biri kimi çox şeyi görüb, çox şeyə şahid olmuşdu. Yeri gəlmişkən, süni uşaq qidasına qarşı mübarizə aparan azsaylı həkimlərdən olan pediatr Aytən İsmayılzadə deyir ki, körpənin reseptinə ana südü yerinə süni uşaq qidası yazan hər həkim qutusuna görə minimum 20-30 manat pul alır firmadan.

Əldə etdiyimiz məlumatlara görə, ölkəmizdə təxminən 1 yaşadək olan 100 mindən artıq körpə süni uşaq qidası yeyir. Təsəvvür edin, bir uşaq südəmər dövründə neçə qutu süni qida yeyir? Ayda ən azı 10-12 qutu. Bir qutu süni uşaq qidası minimum 10 manatdan başlayır, əksər hallarda həkimlər daha bahalısını məsləhət görür. Yəni ailə hər dəfə uşağına süni qida alanda həm də həkimin pulqabına pul göndərmiş olur. Belə ki, süni uşaq qidası bazarında bu qədər böyük pullar dövr edir. Əmizdirmə mütəxəssisləri doğum evlərinə buraxılmır, anaları südvermə ilə bağlı məlumatlandırırlar deyə.

UNICEF-in məlumatına görə, ana südü ilə qidalanmayan uşaqlarda ölüm nisbəti qidalananlara nisbətən 4-6 dəfə çoxdur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə, qida çatışmazlığı 5 yaşa qədər uşaq ölümlərinin 7 faizinə səbəb olur və bunun təxminən yarısının əsas səbəbidir. ÜST bildirir ki, əmizdirən qadınların nisbəti yüksək olarsa, ana südü hər il 800 000-dən çox insan həyatını xilas edəcək.

Körpə ilk 6 ayda yalnız ana südü ilə (susuz) qidalanmalı, 6 aydan sonra əlavə qidalara keçsələr belə, ən azı 2 yaşa qədər və daha sonra ana südü ilə qidalanmalıdırlar. Ana südü ilə qidalanan körpələrdə allergik xəstəliklər, 1 və 2 tip diabet, iltihablı bağırsaq xəstəlikləri, hipertoniya, xərçəng, allergiya, astma, piylənmə, dağınıq skleroz, diş quruluşunun pozğunluqları və bəzi psixi xəstəliklər daha az rast gəlinir. Ana südü ilə qidalananların təhsildə uğur qazandıqları da məlumdur. Üstəlik, əmizdirmə təkcə körpəyə deyil, həm də anaya, ölkə və ailə iqtisadiyyatına, ətraf mühitə öz töhfəsini verir.

Azərbaycanda yeni doğulanların ana südü ilə qidalandırılma statistikası ən son 2021-ci ilə aiddir. Ölkəmizdə yenidoğulanların 82,9 faizi (hər min nəfərə) ana südü ilə qidalanır. Onlardan 3 ayına qədər yalnız ana südü ilə qidalananlar 58,2 faiz təşkil edir. 6 ayına qədər ana südü qəbul edən körpələr 68 faizdir. Onlardan yalnız ana südü ilə qidalananlar isə 39,2 faiz təşkil edir. 12 ayına qədər ana südü ilə qidalananlar 46,4 faiz, 1,5 yaşına qədər ana südü ilə qidalananlar 16,9 faiz, 2 yaşa qədər ana südü ilə qidalananlar 8,7 faizdir. Bu, olduqca təhlükəli rəqəmdir.

Qeyd edək ki, ana südü ilə qidalanan yenidoğulan körpələrin sayı (hər min nəfərə) 2010-cu ildə 77.9 faiz, 2011-ci ildə 74.5 faiz, 2012-ci ildə 83.5 faiz, 2013-cü ildə 86.5 faiz, 2014-cü ildə 93. 2 faiz, 2015-ci ildə 90.3 faiz, 2016-cı ildə 95.2 faiz, 2017-ci ilə 89.7 faiz, 2018-ci ildə 82.8 faiz, 2019-cu ildə 82.9 faiz təşkil edib.

Pediatr Şahanə Yadigarlı deyir ki, əgər hansısa pediatr uşağa süni qida verilməsini məsləhət görürsə, bu, həmin həkimin savadının aşağı olmasının və yaxud süni qidaların satışından gəlir əldə etdiyinin göstəricisidir: "Pediatr analara ancaq onu tövsiyə etməlidir ki, ilk altı ayadək övladını yalnız ana südü ilə qidalandırsın, ana südünü hansı yollarla artırsın. Altı aydan sonra isə ana südü ilə yanaşı, əlavə qidalar da vermək olar ki, bu da bir çoxunun başa düşdüyü kimi süni uşaq qidaları deyil, yumurta sarısı, yulaf, qarabaşaq, manna (buğda yarması) və digər sıyıqlardır. Mən analara həmişə mağazalarda satılan hazır yox, ev şəraitində hazırlanan qidaları məsləhət görürəm. Amma təəssüf edirəm ki, tənbəl analarımız çoxdur, alma püresini belə hazır alırlar. Ağıllı analar isə uşaqlarına konservantlarla konserviləşdirilib uzunmüddətli istifadəyə yararlı olan qablaşdırılmış uşaq yeməkləri vermirlər".

Həkim deyir ki, anaların südü ola-ola doğum evlərində pediatrlar analara süni qidalar təklif edir, çox qadın da savadsızlıqdan bunu məcburi hesab edir: "Reseptlərə ən bahalı uşaq qidaları yazılır. Yanıma uşağını müayinəyə gətirən qadınlar var ki, baxıram südü olduğu halda süni qida verir uşağa. Alternativ qidalanma olduqda anaların südü quruyur, üstəlik, doğum evindən çıxıb evə gedəndən sonra da süni uşaq qidaları satan firmalar analardan əl çəkmir, tez-tez zəng edib uşağın qidalanması ilə maraqlanırlar. Bu, həmin firmaların həkimə pul ödəməsi deməkdir".

Ana südü əmən uşaqlarda miningit, qulaq infeksiyaları, revmatizm, əsəb problemi, immun çatışmazlığı da olmur, orta qulağın iltihabını belə ana südü sağalda bilir. Bundan əlavə döş əmən uşaqlar çox az xərçəng xəstəliyinə tutulma riski daşıyırlar, onlar yaşıdlarına nisbətdə daha az diabetə yoluxurlar.

Ana südü hər körpənin haqqıdır, onu bu nemətdən məhrum etməyə heç bir ananın haqqı yoxdur. Hamiləlikdə sağlam qidalanın ki, övladınızın təməl qidası bol olsun, onu yalnız biznes maraqları güdən işbazlardan, süni qidalarla genefondumuzu dağıtmağı qarşısına məqsəd qoyan qlobal qüvvələrin təsirindən qoruyasınız. Hər yeri zəbt etmiş süni qidalarının reklamlarındakı "biz sizin övladınızı düşünərək ən yaxşı qidanı hazırladıq" kimi cümlələrə aldanmayın. Unutmayın ki, heç kim sizin övladınızı sizin qədər düşünə bilməz.

***Lalə Mehralı***



# FELYETON

## Marketlərə minnətdarlıq

Bu market işi heç də asan iş deyil, bunu hamı bacarmaz. Hər adam durub market işi qura, market işlədə bilməz. Buna baş lazımdır. Ağıl, dərrakə lazımdır. Bir sözlə, fərasət lazımdır. Məsələn, bizim marketlərdə işini quranlar kimi. Bir neçə il öncəyə kimi marketlər yalnız ərzaq və qeyri-ərzaq məhsulları satırdı. Market sahibləri oturub düşünüb-daşındılar, yeni bir ideyaya gəldilər. Dedilər ki, bir halda bu qədər adam marketə girib-çıxır, qoy elə edək, onları özümüzdən daha da asılı edək. Beləliklə, meyvə-tərəvəzi də gətirdilər marketə. Bax, baş, budur.

Bizim xarakter və düşüncəmizə, ərincəklik və qoçaqlıq dərəcəmizə, ağlımıza, huşumuza çox yaxşı bələd olanlar düşündülər ki, gəlib bizdən çörək, toyuq, su, vermişel, peçenye alanlar deyəcək, əşi, bir də durub bazara gedim, qoy elə buradan kartof-soğan, pomidor-xiyar, lobyabadımcan, alma-şaftalı da alım. Baxanda ki, qiymətlər bazar qiymətindən fərqlidir, məsələn, pomidor hazırda bazarda 1.30 - 1.80 qəpik, marketlərdə isə 2.50 - 4 manat, alma bazarda 50 qəpik, marketlərdə 1.50-3 manat, lobya bazarda 2-2.50, marketlərdə 4-5 manatdırsa, deyirik ki, ta bura qədər gəlmişik də, cəhənnəm, alaq.

Bunu görən market sahibləri isə özləri üçün gözəl bir biznes sahəsi də qurmuş oldular. Gedib bazardan ucuz alıb, gətirib marketlərdə yuxarı qiymətə satmağa başladılar. Müftə verməyəcəkdilər ki... Biz də almağa başladıq. Hələ yeri gələndə də ömürlərinə duaçı olduq ki, bunlar bizi əziyyətdən qəribə qurtarıblar. Həqiqətən belədir də.

Marketlər baxdılar ki, iş elə bu meyvətərəvəzdəymiş... Gördülər, biz pula pul demirik, qiymətləri də gündən-günə qaldırdılar. Əcəb də etdilər. Çünki həm bizi bazara getməkdən xilas edəcək, həm də durub bizə hələ aşağı qiymətə məhsul satacaqdılar?

Budur, işdən gəlirsən, yorğun-arğın, girirsən marketə ki, bir çörək alıb aparıb yeyəsən, yadına düşür ki, bəs pomidor da yoxdur axı evdə, uşağın meyvəsi də qurtarmışdı, kartof da 2-3-ü qalıb, başlayırsan alış-verişə. Baxırsan ki, bu pomidor yaxşı deyil ey, əzik-üzükdür. Bu qiymətə bazardan həm keyfiyyətlisini, həm də artıq ala bilərsən. Lakin elə bu anda, "cəhənnəm olsun, bir də kimdir ey bazara gedən",- deyib, elə həmin xarab-xurabı da almalı olursan.

Keçən günlərdə marketlərdən birində lobya vardı, qiyməti də əvvəl 6, sonra 4 manat neçə qəpik oldu. Neçə günlər həmin lobyanı elə yerindəcə gördüm, baxdım ki, artıq quruyur, amma qiyməti enmir ki, enmir. Dedim axı niyə enməlidir ki, durub da orda, camaat əziyyət çəkib bazardan lobya alıb gətirib burada-evimizin içindəcə bizə verir, hələ bir endirim də edəcək. Quruyar, alınmaz, atar zibil yeşiyinə, bizə niyə satmalıdır ki?.. Olsun bütün meyvə-tərəvəzlər.

Beləliklə, halal olsun market sahiblərinə, onların əməkdaşlarına. Fərasət həqiqətən də ayrı şeydir. Maşallah, belə deyirik, göz dəyər. Yüz dəfə maşallah.

Camaatı düşündükləri üçün irili-xırdalı bütün marketlərə təşəkkür etməyək, bəs nə edək?.. Minnətdarıq.

***Mətanət Məmmədova***

*ƏCNƏBİ EKSPERTLƏR*

# "Ermənistan Qərbin quduz köpəyinə çevrilir"

Artıq xəbər verildiyi kimi, ABŞ Senatının Təxsisatlar Komitəsi Ermənistana 65 milyon dollar ayrılmasını təsdiqləyib. Ermənistanın hərbi büdcəsini doldurur, baxmayaraq ki, ilk baxışda onlar formal olaraq dinc istiqamətlərə xərclənməsi üçün nəzərdə tutulub. ABŞ İrəvanın militarist ambisiyalarını bu qədər açıq şəkildə təşviq etməklə nəyə nail olmağa çalışır? Əcnəbi politoloqlar "Caliber" analitik mərkəzinə şəhrlərində bu sualı cavablandırıblar.

İqtisad elmləri doktoru, Sankt-Peterburq Dövlət Universitetinin professoru, rusiyalı












politoloq Stanislav Tkaçenkonun fikrincə, Vaşinqtonun növbəti maliyyə ilində İrəvana 65 milyon dollar yardım ayıracağı barədə məlumatın bir neçə aspekti var.

"Ermənistanın baş naziri Nikol Paşinyanın 2023-cü ilin payızında sürətlənən "Qərbə dönüş" proqramı geosiyasi baxımdan ABŞ-da Cənubi Qafqazın xəritəsinin yenidən cızıla biləcəyi ilə bağlı illüziya yaratdı. Ən azı, Vaşinqton ümid edir ki, Cənubi Qafqazda dövlətlərarası qarşıdurma səviyyəsini saxlamaq mümkün olacaq ki, bu da 3 regional gücü zəiflədəcək və ABŞ-a əsas xarici təsir mərkəzi rolunu bərpa etməyə, müstəqil oyunçuları cəzalandırmaq və itaətkar kuklaları mükafatlandırmaq imkanı yaradacaq. Hazırkı Ermənistan hökuməti müdafiə və dövlət təhlükəsizliyi məsələləri də daxil olmaqla ən mühüm dövlət idarəetmə funksiyalarını getdikcə daha çox xarici oyunçulara, Aİ və ABŞ-a verir. Bu cür geosiyasi şans Vaşinqton üçün getdikcə nadir hala gəlir. Sonuncu belə hal tamamilə ABŞ-ın nəzarətində olan Ukraynadır",- politoloq qeyd edib.

Tkaçenkonun fikrincə, iqtisadi baxımdan, Ermənistan hökuməti ölkənin Avrasiya İqtisadi İttifaqına üzvlüyü və mallarının faktiki olaraq böyük Rusiya bazarına çıxışı ilə təmin edilən milli iqtisadiyyatın sürətli inkişafı şəraitində belə dövlət büdcəsinin kəsirinə nail olur.

"Gələn il üçün açıqlanan 65 milyon dollar məbləğində yardım son dərəcə əhəmiyyətsiz görünür, lakin biz görürük ki, Vaşinqton Ermənistana necə subsidiya iynəsi soxmağa çalışır, o halda ki, xarici yardımın həcmini artırmaq üçün İrəvan birbaşa onun diktəsi ilə hərəkət etməli olacaq. Müdafiə xərcləri Ermənistan dövlət büdcəsinin ən böyük bəndlərindən birini təşkil etdiyi üçün belə yardım son nəticədə bütün Cənubi Qafqazda təhlükəsizlik vəziyyətinin pisləşməsinə gətirib çıxarır.

Diplomatik olaraq ABŞ və NATO hərbçilərinin öz ərazisində daimi olmasına razılıq verməklə, eləcə də Rusiyaya dost olmayan ölkələrdə silah alışına keçməklə Ermənistan Moskva üçün müttəfiq və dost dövlətdən xarici siyasətdə rəqibə çevrilir. Bu inkişaf trayektoriyası erməni xalqının milli maraqlarına və Rusiya ilə tarixi əlaqələrə ziddir. Dörddə bir əsr ərzində davam edən diplomatik səylər nəticəsində Moskva Ermənistan hökumətini Qarabağ məsələsini sülh yolu ilə həll etməyə inandıra bilməyib. İndi Nikol Paşinyan ölkəni idarə etməsinin səmərəsizliyini Ermənistan xalqına Rusiyanın günahı kimi izah edərək, eyni zamanda Rusiya ilə əlaqələri kəsərək öz xalqını Moskvaya qarşı çevirməyə çalışır. Belə ki, ABŞ-ın Ermənistana yardım üçün ayırdığı məbləğ ciddi olmasa da, bu addımın özü Ermənistanın xarici siyasətində mühüm yeni tendensiyaları göstərir. Bunlar təbii ki, həm Cənubi Qafqazdakı qonşu dövlətlər tərəfindən, həm də daha geniş beynəlxalq kontekstdə, o cümlədən Rusiyada xarici siyasətin planlaşdırılması prosesində nəzərə alınacaq",- deyə S.Tkaçenko yekunlaşdırıb.

Belaruslu politoloq, siyasi elmlər namizədi Sergey Tomiçin fikrincə, ABŞ Ermənistanda öz maraqlarını getdikcə aydın şəkildə müəyyənləşdirir.

"Ermənistanın Qərbin hərbi peykinə çevrilməsi bir az qorxulu görünür, bunu deməyin başqa yolu yoxdur, o, Bakıya, sonra Moskvaya, hətta bəlkə də başqasına qarşı növbə ilə hürən quduz köpəyə çevrilir. Göründüyü kimi, gələcəkdə İrəvanın hərəkətlərinin əsas əlaqələndiricisi hətta Fransa və Aİ deyil, ABŞ olacaq. Baxmayaraq ki, onlar da İrəvana sponsorluq edəcəklər. ABŞ-ın motivasiyası son dərəcə sadə və aydındır- Cənubi Qafqaza və onun tranzit axınlarına nəzarəti ələ keçirmək, bu potensialı tamamilə dondurmaq. Çünki məhz ABŞ Zəngəzur dəhlizinin reallaşmasında maraqlı deyil - Vaşinqton analitiklərinin fikrincə, belə dəhliz Azərbaycan, Rusiya, Türkiyənin, qlobal perspektivdə isə Çinin və onun "İpək Yolu"nun mövqelərini gücləndirəcək.

Yuxarıda göstərilən ölkələrin hamısı ABŞ-ın narahatçılığının obyektidir və Vaşinqton region ölkələri ilə Çin arasında nəqliyyat inteqrasiyasının oksigenini kəsmək üçün hər şeyi edəcək. Təbii ki, Vaşinqtonu regionda sabitliyi pozmağa sövq edən əsas səbəblərdən biri də Çindir və bu mənada ABŞ ambisiyaları Aİ-nin planlarına tamamilə kölgə salır. Sonuncu nəzəri cəhətdən regionun və onun infrastrukturunun inkişafında maraqlıdır, özünün Cənubi Qafqazla münasibətlərinin mahiyyətini başa düşür, lakin o, kəsilən quzu kimi Vaşinqtondan gələn əmrləri yerinə yetirir",- deyə S.Tomiç yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# Təbii fəlakətlər: insan təbiətlə döyüşür



**Bəşəriyyət var olandan bəri planetdə olduqca çox təbii fəlakətlər, daşqınlar, qasırğalar, torpaq sürüşmələri, zəlzələlər baş verib. Ən böyük təlafatlar, ən çox zərərlərlə nəticələnən bu fəlakətlər insanlıq tarixində də dərin izlər qoyub. Dünya tarixində ən böyük iz qoyan fəlakətlər var ki, maksimum tələfatla nəticələnib.**

Statistik hesabatlara baxdıqda məlum olur ki, dünyada baş verən 31 növ təbii fəlakətdən 28-i meteoroloji fəlakətlərdir. Təbii fəlakətlərin növləri, zərərləri, təhlükələri və nəticələri ölkədən ölkəyə dəyişir. Məsələn, Aralıq dənizi regionunda ən çox baş verən fəlakətlər təbii fəlakətlər quraqlıq, daşqınlar, meşə yanğınları, torpaq sürüşmələri, dolu və qar fırtınaları, uçqunlar və şaxtalardır. Bizim ölkəmizdə xoşbəxtlikdən o qədər də çox təbii fəlakət baş vemir, ən çox rast gəlinən meteoroloji təbii fəlakətlər dolu, sel, güclü külək, şimşək çaxması, ildırım düşməsidir. Ümumdünya Meteorologiya Təşkilatının məlumatına görə, təkcə 1980-ci ilin əvvəlindənm sonunadək dünyada 700.000 insan meteoroloji fəlakətlər nəticəsində həyatını itirib.

Təbii fəlakətlər baş vermə tezliyinə və səbəblərinə görə də dəyişir. Tədricən gələn təbii fəlakətlər var ki, onlar yavaş-yavaş şiddəti artan şaxta, quraqlıq, aclıq kimi fəlakətlərdir. Onlarla mübarizə və ya maksimum tədbir görmək üçün müəyyən vaxt olur. Lakin qəfil təbii fəlakətlər var ki, onlar ən töhlükəli olanlardır. Zəlzələ, sel, sürüşmələr, qaya və dağ uçqunları, fırtınalar, sunamilər, tornadolar, vulkanlar, yanğınlar və bu tip qəfil fəlakətlər daha çox dağıntıya və insan itkisinə səbəb olur. Bunlardan başqa, insanların əli ilə törədilən süni fəlakətlər də var ki, o fəlakətlər də böyük təlafatlara və itkilərə səbəb olur. Nüvə, bioloji, kimyəvi silahlarla "qəzalar", nəqliyyat qəzaları, istehsalat qəzaları da insan təlafatlarına səbəb ola, təbiətə zərər verə bilir.

Tarixin ən böyük sunamisi bizim əsrdə baş verdiyi üçün hamımız bunun şahidi olduq. 2004-cü ildə Hind okeanında, Sumatra adasının sahillərində baş vermiş 9 bal gücündə zəlzələ nəticəsində 2 milyona yaxın insan evsiz qalmış, 230 min insan həyatını itirmişdi. 1815-ci il aprelin 10-da İndoneziyanın Sumbava adasındakı Tambora vulkanının püskürməsi, lava püskürməsi nəticəsində 12.000 insan həyatını itirdi, daha sonra isə kül səpələnməsi səbəbindən kənd təsərrüfatı məhv olduğu üçün 90.000-dən çox insan həyatını itirdi. Partlayış səbəbindən həmin il Şimal yarımkürəsində yay olmadı və buna görə də kənd təsərrüfatı işləri tamamilə dayandı.

İndiyə qədər məlum olan ən ölümcül siklon olan Bhola 1970-ci ildə baş verdi və təxminən 500.000 insanın ölümünə səbəb oldu. Həmin vaxt Pakistan və Banqladeşin əksər hissəsi bundan zərər çəkdi. Siklonun keçdiyi yerlərdə evlərin 80%-i dağıldı və 3,5 milyon insan bu qasırğadan zərər çəkib. Bilinən ən böyük zəlzələ isə 22 may 1960-cı ildə Çilidə baş verib. 9.5 gücündə baş verən zəlzələdə 220 min adam ölüb.

1920-ci il dekabrın 16-da baş verən Rixter cədvəli ilə 8,5 bal gücündə zəlzələ nəticəsində Çinin Kansu əyalətində nəhəng sürüşmə baş verdi və insanlar nə baş verdiyinin fərqinə varmadan tonlarla torpaq qalaqları altında qalıb öldülər. 200 min insanın öldüyü hadisə tarixin ən böyük sürüşmə fəlakəti olub. Şaansi zəlzələsində də bu şəhərin əhalisi bəşər tarixində ən böyük zəlzələlərdən birini yaşayıb. 1556-cı ildə Çində baş verən 8 ballıq zəlzələdə ümumilikdə 830 min insan həyatını itirib.

1972-ci ildə İranda 4000 nəfərin ölümünə səbəb olan qar fırtınası 200 kəndi xəritədən silib. Fevralın 3-də başlayan fırtına fevralın 9-da başa çatanda qarın qalınlığı 8 metr olub. Bu, məlum olan ən ölümcül çovğun kimi tarixə düşdü. 2023-cü il Türkiyə üçün də unudulmaz il oldu. Fevralın 6-da 7,7 bal gücündə baş verən zəlzələdə 53 mindən çox insan həyatını itirdi. Zəlzələ Suriyada da böyük dağıntılara səbəb oldu və bölgədə ən azı 5800 insanın həyatını itirdiyi məlum oldu.

Nə zəlzələ, nə sel, nə sunami, nə tornado, nə də quraqlıq - bunlardan böyük fəlakət olan aclıq və xəstəlik də dünyada böyük qırğınlara səbəb olub. 1845-1852-ci illərdə İrlandiyada baş verən kartof qıtlığı ölkə əhalisinin dörddə birinin ölümünə səbəb oldu -7 ildə 1 milyon insan! Bəşər tarixində ən ölümcül təbii fəlakət isə ispan qripi hesab edilir. 1918-1919-cu illərdə baş vermiş bu fəlakətli epidemiya ticarət gəmiləri vasitəsilə demək olar ki, bütün dünyaya yayıldı. Hindistanda 16 milyon insan öldürən ispan qripi Amerikada 650.000 insanın və bütün dünyada 100 milyona yaxın insanın ölümünə səbəb olub.

- "Təbiətlə müharibə şəraitindəyik. Qalib gəlsək, məğlub olacağıq.."
© Hubert Reeves













**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "fikir ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ
SƏS
2 avqust
2024-cü il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Rol model olaraq uşaqlar bizi örnək alırlar”

*PSİXOLOQ İZAH ETDİ*



”Valideyn və övlad arasında olan duyğusal bağ, güvən, bu kimi ünsiyyət dili xüsusən 0-6 yaş dönəmində formalaşır”. Bu sözləri SİA-ya açıqlamasında uşaq, yeniyetmə və yetkin psixoloqu Nigar Ağabağırova deyib. Psixoloq bildirib ki, çox zaman deyirlər ki, problemlər yeniyetməlikdə başlayır: ”Əslində belə deyil. Sadəcə yeniyetməliyə qədər valideyn-övlad arasında olan problemlər yeniyetməlikdə bir az da qabarıq şəkildə özünü göstərir. Buradan aydın olur ki, problemlər yeniyetməlikdə yaranmır, sadəcə olan problem yeniyetməlikdə vulkan kimi üzə çıxır. Valideynlər maksimum dərəcədə çalışmalıdırlar ki, övladlarına qayda qoyarkən qəti olsunlar. Qayda qoyurlarsa, hər dəfə ona əməl etsinlər. Övladları səhv edərkən səhvlərə deyil, səhvin həllinə yönəlmelidirlər. Bir uşaq səhv edirsə, danlanır. Təbii ki, biz ona səhvini deməliyik, yeri gələndə kömək də etməliyik. Sadəcə uşaqlar davamlı tənqid olunanda, müsbət cəhətləri deyilməyəndə ruhdan, həvəsdən düşürlər, valideynlə münasibətləri korlanır. Çalışırlar ki, problemləri olanda onu başqa adama desinlər. Əslində valideyndən uzaqlaşırlar.

Valideynlər övladlarını tənqid etdikdə yaxşı olar ki, müsbət davranışlarını da desinlər. Bu, çox önəmli nüansdır. Davamlı tənqid olunan, əməyi heçə sayılan, ancaq mənfi eşidən uşaq normal şəxsiyyət kimi yetişə bilməz. Bu bəzən uşaqlarda aqressiya şəklində özünü göstərir, çox aqressiv olurlar. Yaxud da, tam tərsinə qapalı insan kimi böyüyürlər. Valideynlər uşağın səhv davranışını ümumiləşdirməməlidirlər. Məsələn, ”Sən həmişə belə edirsən, heç vaxt mənə qulaq asmırsan” bu kimi sözlər uşağın özgüvənini aşağı salır. Eyni zamanda o, özünüinkişafa vaxt ayıra bilmir. O qədər aqressivləşir, yaxud, içinə qapanır ki, artıq vəziyyəti dəyişmək haqqında düşünmür”.

”Yola getmək daha çox valideyndən asılıdır. Çünki valideyn uşağa fərdi yanaşmalıdır, çünki hər uşaq eyni deyil. Fərdi yanaşaraq uşaqla yola getməyi bacarmalıdır. Çünki uşaqların xarakterinin formalaşmasında bizim də rolumuz var. Hətta bizim rolumuz daha çoxdur. Genetik amillər də var. Amma daha çox bizdən asılıdır. Biz istəsək, bu vəziyyəti düzəldə bilərik. Rol model olaraq uşaqlar bizi örnək alırlar. Valideynlər əgər çətinlik çəksələr, professional dəstək ala bilərlər. Professional dəstək alaraq övladlarına kömək edə bilərlər. Çox yaxşı olar ki, analı-balalı seanslara qoşulsunlar. Belə olanda nəticələr daha sürətli olur” - deyə o, əlavə edib.

***S. Ağazadə***

## Bu gün 35 dərəcə isti olacaq



Avqustun 2-də Bakıda və bölgələrdə 35 dərəcə isti gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi səhər şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 21-26° isti, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 755 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 65-75 %, gündüz 45-55 % olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir.Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-24° isti, gündüz 30-35° isti, dağlarda gecə 10-15° isti, gündüz 15-20° isti olacaq.

# Namazda örtünməyi vacib edən nədir?



“Namaz Allah-təalanın xatırlanmasıdır. Günahların bağışlanma səbəbi, insanların mənəvi varlığının, ruhunun vaksini, günahlar qarşısında immunitetidir”. Bu sözləri SİA-ya açıqlamasında Təzə Pir məscidinin axundu Mircəfər Əyyubov deyib. O bildirib ki, insan namaz qılanda onda Allah-təala ilə danışmaq məşqi, danışmaq adəti yaranır: ”Namaz qılmayan insan nə qədər özünü Allah adamı hesab etsə də, sürətlə Allahdan uzaqlaşır. Vicdanı ilə özü hiss edir, amma boynuna almaq istəmir. Çünki insan günahkarlıq duyğusundan qorxur. Ən qatı cinayətkara da ”sən cinayətkarsan” desən, qəbul etmir. Namaz qılmayan da heç cür qəbul edə bilmir ki, günahkardır. Deyir ki, ”mənim qəlbim təmizdir, baxma, namaz qılmıram”. Amma özü də vicdanı ilə baxanda görür ki, Allah ilə danışmaqdan çəkinir, uzaqlaşır. Özünü Allahın qarşısında həmişə günahkar hiss edir. Namaz nəfəs almaq kimi bir şeydir. Nəfəs almaq, oksigen qəbul etmək cisim üçün nədirsə, namaz da ruh üçün elədir. Peyğəmbər Sallallahu Aleyhi Valeh buyurub ki, ”kim gündə beş dəfə yuyunsa, təmiz olarsa, gündə beş namaz da ruh üçün o xarakteri daşıyır”. Odur ki, namaz Allah-təalanın hamıdan həmişəlik tələbidir. Qiyamətdə də namaz ilə insanın insanlığı ölçüləcək. Allah həm bizi, həm də dünyanı, hər şeyi yaradandır. Bircə tələbi var ki, namazı ötürməyək. Biz bunu da müzakirə obyekti etsək, bir növ təkəbbür olur. Allah bu qədər nemətin müqabilində bircə şey istəyir, biz onu çək-çevirə salırıq. Ona görə də gərək namazı ötürməyək”.

”Namazda xanımların örtünməsi məsələsinə gəldikdə, Allah ədəb tələb edir. Söhbət məhrəm olub-olmamaqdan getmir. Onsuz da, Allah bizim nəinki varlığımıza məhrəmdir, bizim daxili orqanlarımızı da bir-bir yaradıb, hər saniyə təmin edir. Bizim bütün hüceyrələrimizin ehtiyaclarını Allah hər saniyə təmin edir. Bizim öz daxili aləmimizdən, bioloji varlığımızdan xəbərimiz yoxdur. Aynada zahirimizi görürük. Hər şeyi Allah bilir, yaradır, təmin edir, amma formal qanunlar qoyub ki, ”ədəbli olun, mənim dediyim olsun”. Ona görə də Allahın bəzi hökmlərinin hikmətlərini bilməsək də, əməl etməliyik. Bu məsələ diqqətlə araşdırılmalıdır ki, qəbul edə bilmiriksə, başa düşməliyik ki, bizim ağlımız etalon deyil. Aləm bizim başa düşüb-düşməməyimizlə idarə olunmur. Bu, elmi lovğalıqdır. İnsanda belə bir təxəyyül var ki, nəyi qəbul edirsə, o, düzdür. Bu, elmi təkəbbürdür. Çox şeylər var ki, hikmətini bilmirik, amma əməl edirik. Biz bunu araşdırmalıyıq, amma nəticə almamışıqsa, demək deyil ki, inkar etməliyik. Allah Quranda buyurur, ”çox şey var ki, siz xoşlayırsınız, amma sizə zərərdir, çox şeylər var ki, siz onu zahirən zərərli hesab edirsiniz, amma sizə xeyirdir”. Allahın əmirlərindən başa düşdüyümüzü qəbul etməliyik, başa düşmədiyimizə də iman gətirməliyik. Allah bir şey bilir ki, vacib edib. Hər şey bizim ağlımızla ölçülmür. Allah nəyi əmr edibsə, nəsə bilir ki, əmr edib” - deyə o, əlavə edib.

***Söylü***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**